

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ VN

№ 32 (874) ■ 23 avqust 2017 | www.vergiler.az | Qiymәti: 60 qәp.

# Prezident İlham Əliyevin Göygöl, Samux, Gədəbəy, Şəmkir rayonlarına səfəri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Göygöl rayonuna gəlib. Səfər zamanı əsaslı şəkildə yenidən qurulmuş 4 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak edib. Göygöl rayonunun Aşağı Zurnabad qəsəbəsi ərazisindəki 3 MVt-luq «Çiçəkli» Su Elektrik Stansiyasının əsaslı yenidənqurmadan sonra istismara verilməsi mərasimində iştirak edən dövlət başçısı sonra Kənd Təsərrüfatı Nazirliyinin Göygöl Rayon İdarəsinin inzibati-laboratoriya binasının rəmzi açılışına qatılıb, Göygöl Zona Baytarlıq Laboratoriyasında yaradılan şəraitlə də tanış olub. Rayon ictimaiyyətinin nümayəndələri ilə görüşən Prezident İlham Əliyev qeyd edib ki, Göygöl rayonunda işlər yaxşı gedir, sosial-iqtisadi inkişaf təmin olunur, rayonun inkişafına böyük diqqət göstərilir. «Əvvəlki illərdə bir çox önəmli sosial, iqtisadi məsələlər öz həllini tapıbdır. İnfrastruktur layihələri uğurla icra edilir, sosial obyektlər tikilir. Bir neçə il bundan əvvəl 150 çarpayılıq rayon mərkəzi xəstəxanası, Olimpiya İdman Kompleksi, kənd yolları, sənaye obyektləri açılmışdır. Bir sözlə, rayonun inkişafı üçün bütün lazımi tədbirlər görülür. Mənə verilən son məlumata görə, Göygöl rayonunda qazlaşdırma təxminən 70 faizə yaxındır, bu iş davam edir və davam etməlidir, daha çox kəndə qaz xətləri çəkilməlidir. Elektrik enerjisi ilə bağlı problemlər öz həllini tapır. Bu gün biz 3 meqavat gücündə yeni su elektrik stansiyasının açılışını qeyd etdik. Kənd yollarının tikintisi davam etdiriləcək. Artıq bir neçə layihə icra edilib, növbəti illərdə qalan kəndlərdə də yollar salınacaq, xüsusilə Göygöl gölünə gedən yol əsaslı təmir olunmalıdır».



Azərbaycan Prezidenti avqustun 19-da Samux rayonuna səfəri çərçivəsində Zazalı «İmamzadə» kompleksi-Gəncə avtomobil yolunun açılışında iştirak edib. Dövlətimizin başçısı Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin birinci mərhələsi üzrə qurğular da daxil olmaqla 8,55 kilometrlik hissəsinin istifadəyə verilməsi mərasimində iştirak edib. Bildirilib ki, Şəmkir çayı üzərində dəryaçanın tikintisi kompleks layihəsinə daxil edilib və ötən əsrin 80-ci illərində tikilmiş Şəmkir maşın kanalının davamı olaraq, 2015-ci ildən uzunluğu 27 kilometrdən çox olan kanalın ikinci növbəsinin tikintisinə başlanılıb. Bu layihənin icrası sayəsində suvarma su mənbəyi işğal zonasında qalan Goranboy rayonunun 26 min hektardan çox torpaq sahəsini suvarma suyu ilə təmin etmək mümkün olacaq.

Samux-Füzuli-Lək-Əlibayramlı-Qarabağlar-Çobanabdallı-Samux avtomobil yolunun açılışında iştirak edən Prezident İlham Əliyev sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb, Samuxda inşa olunmuş 100 yerlik körpələr evi-uşaq bağçasının açılış mərasimində iştirak edib.



Prezident İlham Əliyev Samux Aqroenerji Yaşayış Kompleksi ilə tanış olub. Bildirilib ki, layihənin 10-12 il müddətinə mərhələlərlə həyata keçirilməsi nəzərdə tutulur. Kompleksdə dövlət-özəl tərəfdaşlığı modeli çərçivəsində dövlət tərəfindən alternativ və bərpa olunan enerji mənbələri hesabına enerji istehsalı sahələrinin yaradılması, alternativ və bərpa olunan enerji mənbələrinin yerli iqtisadiyyatın bütün sahələrinə tətbiqinin təmin edilməsi, yerli infrastrukturun inkişafında iştirak, özəl sektor tərəfindən isə kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, logistika mərkəzinin və eləcə də burada fəaliyyət göstərən əməkdaşlar üçün müasir tipli yaşayış kompleksinin inşası planlaşdırılıb. Layihə 31 MVt-lıq elektrik və 48 MVt-lıq istilik generasiya gücünə malik hibrid tipli enerji stansiyasından, əkinçilik və bağçılıq sahələri, istixana, iribuynuzlu və xırdabuynuzlu heyvandarlıq, quşçuluq, balıqçılıq kompleksləri, arı ailələrinin yetişdirilməsi mərkəzi, süd və ət kombinatları, yem zavodu, logistika mərkəzindən və yaşayış kompleksindən ibarətdir.

Azərbaycan Prezidenti İlham Əliyev Samux rayonuna səfəri çərçivəsində 110/35/10 kV-luq «Yenikənd» yarımstansiyasının açılışında da iştirak edib. Avqustun 20-də Gədəbəy rayonuna səfər edən Prezident İlham Əliyevə son illərdə rayonda görülən işlər, həyata keçirilən layihələr barədə məlumat verilib.

Dövlətimizin başçısı «Gədəbəy Mineral Suları» MMC-nin illik istehsal gücü 6 milyon litr olan limonad zavodunun açılışında iştirak edib. Məlumat verilib ki, Gədəbəy rayonunun Zəhmət kəndində, iki hektar ərazidə fəaliyyətə başlayan və ümumi dəyəri 4 milyon manat olan zavodun yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 1,6 milyon manat güzəştli kredit verilib. Bu müəssisədə 0,33, 0,75 və 1,5 litrlik plastik qablarda armud, tərxun, limon və üzüm limonadları istehsal edilir. Limonad istehsalı korpusu 3500 kvadratmetrdir. Buraya anbar və istehsal sahəsi daxildir. Limonadın xammalı Almaniyanın «Döhler» şirkətindən alınır və avtomatik sistemdə hazırlanır. İstehsalatda istifadə olunan kompressorlar isə Belçika avadanlığıdır. Hazırda müəssisədə 25 nəfər çalışır və gələcəkdə istehsalın artırılması hesabına işçilərin sayının 50-yə çatdırılması nəzərdə tutulub. Zavod öz əhatə dairəsini getdikcə genişləndirir.

Prezidenti İlham Əliyev avqustun 20-də 110/35/10 kilovoltluq yeni «Gədəbəy» elektrik yarımstansiyasının açılışında iştirak edib. Dövlətimizin başçısına yeni yarımstansiyada görülən işlər barədə məlumat verilib. Bildirilib ki, yeni yarımstansiyası 21 min abonentə xidmət edir. Yarımstansiyada 110 kV-luq açıq, 35 və 10 kV-luq qapalı paylayıcı qurğular inşa edilib. Bu yarımstansiyanı qidalandırmaq üçün «Zəyəm» yarımstansiyasından 48 kilometr uzunluğunda 110 və 35 kV-luq birdövrəli hava xətləri çəkilib. Paralel olaraq Gədəbəy rayonunun böyük bir hissəsini elektrik enerjisi ilə təmin edən 35 kV-luq «Gədəbəy-Saratovka» hava xətti tam yenidən qurulub.

Azərbaycan Prezidenti İlham Əliyev Gədəbəydə Heydər Əliyev Mərkəzinin açılışı mərasimində iştirak edib, binanın rəmzi açılışını bildirən lenti kəsib. Məlumat verilib ki, ümumi sahəsi 3500 kvadratmetrdən çox olan Heydər Əliyev Mərkəzinin tikintisi yüksək səviyyədə həyata keçirilib.

Rəqs zalının, elektron kitabxananın yaradıldığı Heydər Əliyev Mərkəzində müxtəlif tədbirlərin keçirilməsi üçün 242 yerlik konfrans zalı da var. Bundan əlavə, Mərkəzdə rəsm, foto və poliqrafiya studiyaları, heykəltəraşlıq dərnəyi, intellektual oyun otağı, saz emalatxanası, həmçinin ingilis, rus və fransız dilləri kabinetləri, o cümlədən ən müasir avadanlıqla təchiz olunan xidməti otaqlar fəaliyyət göstərəcək.

Prezident İlham Əliyev Gədəbəy şəhərinin içməli su təchizatı layihəsinin açılışında iştirak edib, Gədəbəy rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Bildirib ki, Gədəbəy rayonunda digər infrastruktur layihələri uğurla icra edilir. Rayonda kənd təsərrüfatı, iqtisadi potensial artır, qazlaşdırma 52 faiz səviyyəsindədir. Eyni zamanda, sosial proqramlar da icra edilir, sənaye müəssisələri yaradılır. Qızıl mədəni sahəsində 600-dən çox insan işlə təmin olunubdur.

Prezidenti İlham Əliyev sonra Şəmkir rayonuna səfər edib, səfər çərçivəsində Şəmkir-Yeni Göyçə-Dağ Cəyir avtomobil yolunun açılışında iştirak edib. Bildirilib ki, yol 5 min nəfər əhalinin yaşadığı 7 kəndi birləşdirir. Avtomobil yolu texnoloji ardıcıllığa riayət edilməklə və yüksək keyfiyyətlə inşa edilib. Ümumi uzunluğu 31 kilometr olan yol 4-cü texniki dərəcəyə aiddir. Yol iki hərəkət zolaqlıdır. Hərəkət hissəsinin eni 7 metrdir. Azərbaycan Prezidenti Şəmkirdə əsaslı şəkildə yenidən qurulan Tarix-Diyarşünaslıq Muzeyində yaradılan şəraitlə tanış olub.

Prezident İlham Əliyev avqustun 20-də «Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin Şəmkir avtomat idarəetmə və nəzarət mərkəzinin açılışında iştirak edib. Dövlətimizin başçısına görülən işlər barədə məlumat verilib. Bildirilib ki, bu layihənin icrası ilə alçaq gərginlikli və yüksək gərginlikli şəbəkələrdə fasiləsiz və keyfiyyətli elektrik enerjisinə nəzarətin təmin edilməsi, sərfiyyat göstəricilərinin real vaxt rejimində monitorinqi, abonent məmnunluğunun təmin olunması məqsədilə fasiləsiz elektrik enerjisinin parametrlərinə nəzarətin təşkili, 10 və 0,4 kV-luq elektrik şəbəkələrində açma-qoşmaların real vaxt rejimində qeydiyyatının aparılması mümkün olacaq.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev avqustun 20-də Şəmkir rayonuna səfəri çərçivəsində Müdafiə Nazirliyinin Mobil Səhra Cərrahiyyə Hospitalının imkanları ilə tanış olub. Dövlətimizin başçısına səyyar hospital barədə məlumat verilib. 2013-cü ilin iyun ayının 24-də açılmış bu hospital indiyədək döyüş bölgələrində təyinatı üzrə fəaliyyət göstərib, 2016-cı ilin aprel döyüşlərində yaralı və xəstələrə tibbi yardım göstərilməsi zamanı praktiki olaraq sınaqdan keçirilib.

Prezident İlham Əliyev avqustun 20-də «Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin Şəmkir filialının açılışında iştirak edib. «Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Vidadi Muradov dövlətimizin başçısına müəssisə barədə məlumat verib. Bildirilib ki, «Azərxalça» ASC-nin Şəmkir filialının binasının tikintisinə 2016-cı ildə başlanılıb və inşaat işləri bu il başa çatdırılıb. Ümumi sahəsi 1100 kvadratmetr olan filial binasında 150 toxucu və 12 inzibati-təsərrüfat işçisi çalışacaq. Bina toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, satış salonu və digər bölmələrdən ibarətdir. Emalatxanada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq və Gəncə, Şəmkir, Samux, Daşkəsən, Göygöl, Gədəbəy, Goranboy rayonlarının kəndlərində toxunan orijinal Gəncəbasar xalça çeşnilərinə üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim və orijinal xalçalar əsasında «Azərxalça»nın rəssamları tərəfindən hazırlanıb. Emalatxana zəruri xammal və ləvazimatlarla - müxtəlif rəngli yun iplərlə, həvə, qayçı, bıçaq kimi alətlərlə təmin edilib. Toxucular bir neçə ay ərzində «Azərxalça»nın burada təşkil olunmuş hazırlıq-tədris kurslarında mütəmadi şəkildə iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Hazırlıq-tədris kursları filial fəaliyyətə başladıqdan sonra da davam etdiriləcək və məzunlara «Azərxalça» ASC-nin sertifikatı veriləcək. Satış salonunda «Azərxalça» ASC-də toxunmuş xalça və xalça məmulatının sərgilənməsi və satışı həyata keçiriləcək.

Filialda yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev xalçaçılarla görüşüb. O, görüş zamanı deyib: «Şəmkirin inkişafına çox böyük diqqət göstərilir. Bu gün şəhər gözəlləşir, abadlaşır. Deyə bilərəm ki, Şəmkir ölkəmizin ən gözəl şəhərlərindən birinə çevrilib. Şəmkirdə həm abadlıq-quruculuq işləri, eyni zamanda, infrastruktur məsələləri həll olunur. Dörd il bundan əvvəl mənim iştirakımla şəhərin içməli su təminatı layihəsi istifadəyə verilmişdir. Bu gün 200 çarpayılıq böyük xəstəxananın tikintisi davam etdirilir, gələn il istifadəyə veriləcək. Yeni yollar salınır. Bu gün biz yol layihəsinin də açılışını etdik. Elektrik enerjisi ilə təminat yaxşılaşır, qazlaşdırmanın səviyyəsi 90 faizdən çoxdur, 30-dan çox məktəb tikilib, təmir edilib. Yəni, rayonun hərtərəfli inkişafı təmin olunur.

Şəmkir rayonunun çox böyük iqtisadi potensialı var. Burada kənd təsərrüfatı, emal sənayesi inkişaf edir. Şəmkirçay su anbarının istifadəyə verilməsi nəticəsində on minlərlə hektar torpaqda əkin işləri aparılır. Ölkəmizin ən böyük aqroparkı yaradılır. Bu gün Logistika Mərkəzinin açılışı da nəzərdə tutulur. Belə gözəl fabrikin açılışı da Şəmkir rayonunun iqtisadiyyatına növbəti töhfədir. Mənim göstərişim «Azərxalça» tərəfindən layiqincə yerinə yetirilir. Qısa müddət ərzində biz ikinci fabrikin açılışına nail olduq. Bu iki fabrikdə 300 iş yeri yaradılmışdır və qeyd etdiyim kimi, bu iş yerlərinin sayı 5 minə çatacaq».

Prezident İlham Əliyevin iştirakı ilə təməli qoyulmuş «Şəmkir Aqroparkı»nın Logistika Mərkəzinin avqustun 20-də açılışı olub. Dövlət başçısı təməli 2014-cü ildə özü tərəfindən qoyulmuş Logistika Mərkəzini işə salıb. Məlumat verilib ki, ümumi dəyəri 100 milyon manatdan çox olan «Şəmkir Aqroparkı»nda həyata keçirilən layihələrə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 22,7 milyon manat dövlətin güzəştli krediti verilib. Mərkəzin inzibati binasında hüquq, maliyyə, biznesin inkişafı departamenti yerləşir.

Logistika Mərkəzində sahibkarların ixrac əməliyyatları ilə əlaqədar prosedurları sadələşdirmək və sürətləndirmək məqsədilə «bir pəncərə» sistemi qurulub. Burada Dövlət Gömrük Komitəsinin, İqtisadiyyat Nazirliyi İstehlak Mallarının Ekspertizası Mərkəzinin, Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarət Xidmətinin, «Atabank» kommersiya bankının müvafiq strukturları fəaliyyət göstərəcək.

Dövlətimizin başçısı Aqroparkda və Logistika Mərkəzində yaradılan imkanlardan daha səmərəli istifadə olunması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

## BU NÖMRƏMİZDƏ

ƏMƏK MÜQAVİLƏLƏRİNİN RƏSMİLƏŞDİRİLMƏSİ 2

VERGİ ÖDƏYİCİLƏRİNİN HÜQUQ VƏ MƏNAFELƏRİ QORUNUR 3

DÖVLƏT PROQRAMLARI REGİONLARIN İNKİŞAFINDA HƏLLEDİCİ ROL OYNAYIR 4

«ŞƏMKİR AQROPARKI»NDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLİB 5

# Vətəndaşların rəy və təklifləri önəmlidir

Vergilər Nazirliyi tərəfindən göstərilən xidmətlərdən vergi ödəyicilərinin və vətəndaşların məmnunluq səviyyəsinin öyrənilməsi məqsədilə nazirliyin internet ünvanında (www.taxes.gov.az) davamlı sorğular keçirilir. Bu sorğuların nəticəsində ayrı-ayrı xidmətlər üzrə vətəndaşların mövqeyi bəlli olur. Sorğuda hər bir vətəndaş yalnız bir dəfə səsvermə hüququna malikdir.

İndiyədək saytda «Vergiləri necə ödəyirsiniz?», «Vergi orqanlarına etdiyiniz müraciətlərə baxılması sizi qane edirmi?», «Alış-veriş zamanı POS-terminaldan istifadə edirsinizmi?, «Elektron qaimə-fakturanın tətbiqinə başlanmasına razısınızmı?», «Vergi orqanı tərəfindən sizə göndərilən sənədlərin (məktub, bildiriş, xəbərdarlıq və s.) hara gəlməsini istərdiniz», «Vergilər Nazirliyinin 195 Telefon Məlumat Xidmətinin fəaliyyətindən razısınızmı?», «Vergilər Nazirliyi tərəfindən göstərilən elektron xidmətlərdən istifadə edirsinizmi?», «Sizin fikrinizcə, vergi qanunvericiliyi ilə nə dərəcədə tanışsınız?», «Vergi hesabatlarının elektron formatda təqdim edilməsi haqqında xüsusi təşkil edilmiş kurslara ehtiyac varmı?», «Bəyannamənin elektron formatda təqdim edilməsinin hansı üstünlüyünü qənaətbəxş hesab edirsiniz?» və digər mövzularda sorğular keçirilmişdir.




Nazirliyin saytında növbəti - «İnternet Vergi İdarəsinin elektron qutusundan istifadə intensivliyiniz» adlı yeni sorğu keçirilir. Sorğu iştirakçılarından hələlik 63 nəfər «hər gün», 16 nəfər «həftədə 1 dəfə», 8 nəfər «ayda 1 dəfə», 7 nəfər «rübdə 1 dəfə», 29 nəfər isə «yalnız bəyannamə təqdim etdikdə» variantlarını seçib.

**AYTƏN**

# Əhalinin sosial vəziyyəti dövlətin diqqətindədir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun məlumatına əsasən, cari ilin yanvar-iyun aylarında pensiya və müavinətlərin maliyyələşdirilməsinə 1 milyard 672,4 milyon manat vəsait yönəldilmişdir ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 131,5 milyon manat və ya 8,5 faiz çoxdur. Vəsaitin 97,3 faizini pensiya xərcləri təşkil etmişdir. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2017-ci ilin altı ayı ərzində əhaliyə 45,8 milyon manat məbləğində müavinət ödənilmişdir ki, bunun da 23,5 faizi hamiləliyə və doğuma görə, 24,3 faizi əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, 15,1 faizi dəfn üçün, 37,1 faizi isə digər məqsədlər üçün ödənilən müavinətlərdir. 2017-ci ilin altı ayı ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 52.950 nəfərə, o cümlədən 44.438 uşağın doğulmasına görə, 4394 nəfərə radiasiya qəzası nəticəsində əlil olmuş şəxslərin müalicəsi üçün, 2447 nəfərə penitensiar müəssisələrində cəza çəkməkdən azad edilmiş şəxslərə və həyatını itirmiş 1671 nəfərin dəfni üçün birdəfəlik müavinətlər verilmişdir.

2017-ci il iyulun 1-i vəziyyətinə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunda 1 milyon 328,4 min nəfər pensiyaçı qeydiyyatda olmuşdur ki, bu da ölkə əhalisinin 13,7 faizini təşkil edir. Onların 59,4 faizi yaşa, 29,3 faizi əlilliyə, 11,3 faizi isə ailə başçısını itirməyə görə pensiya alır.

Təyin olunmuş aylıq pensiyaların orta məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,6 faiz artaraq 202,2 manat təşkil etmiş və orta aylıq əmək haqqının 38,7 faizinə bərabər olmuşdur. 2017-ci il iyulun 1-i vəziyyətinə 378 min nəfərə sosial müavinətlər təyin olunmuşdur. Yaşa görə müavinət alanların sayı 22 min nəfər, əlilliyə görə - 155,9 min nəfər, ailə başçısını itirməyə görə - 43,1 min nəfər, sağlamlıq imkanları məhdud olduğuna görə müavinət alan 18 yaşadək uşaqların sayı isə 72,2 min nəfər olmuşdur.

Əmək pensiyası almaq hüququ olmayan 53,8 min nəfərə kommunal, nəqliyyat və digər xidmətlər üçün müavinət verilmişdir.

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların 395 nəfər qəyyumuna aylıq müavinət verilmişdir. Bununla yanaşı, şəhid ailələrinin, müharibə əlillərinin, Çernobl AES-də baş vermiş qəzanın ləğvində iştirak edərək birinci və ikinci qrup əlil olmuş şəxslərin və müddətli hərbi xidmət qulluqçularının 9,8 min ailəsinə 18,3 min uşaq üçün aylıq müavinət verilmişdir. Bundan əlavə, 2354 nəfər bir yaşadək uşağa görə 2301 ailəyə və beşdən çox uşağı olan 3,0 min qadına 8,8 min uşaq üçün sosial müavinət verilmişdir.

İlin ilk yarısında əmək xəsarəti və ya peşə xəstəliyi nəticəsində 432 nəfər zərərçəkən kompensasiya almışdır.

Ölkədə 120,3 min aztəminatlı ailənin 498,4 min nəfəri ünvanlı dövlət sosial yardımı almış və onun bir nəfərə düşən orta aylıq məbləği 35,8 manat təşkil etmişdir. Cari ilin əvvəli ilə müqayisədə ünvanlı dövlət sosial yardımı alanların sayı 10,7 faiz azalmışdır.

Azərbaycan Respublikası Prezidentinin təqaüdünü almış şəxslərin sayı 58,8 min nəfər olmuşdur.

# Avtomobil sığortasında nağd ödənişlər dayandırıla bilər

Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən icbari avtomobil sığortasında endirimlərin qarşısını almaq üçün qanunda dəyişikliklər edilməsi müzakirə olunur. Fins.az saytının yaydığı məlumata görə, indiyə qədər tətbiq edilən inzibati sanksiyalar sığorta şirkətlərinin avtomobillərin icbari sığortası üzrə endirim etmələrinin qarşısını ala bilməyib. Palata endirimlərin qarşısını almaq üçün bundan sonra iqtisadi metodlardan istifadə etməyə daha çox üstünük verəcək.

Bununla bağlı «İcbari sığortalar haqqında» Qanuna dəyişikliklərin edilməsi barədə təkliflər müzakirə edilir. Əsas təkliflərdən biri icbari avtomobil sığortası üzrə nağd ödənişlərin birbaşa təmirlə əvəz edilməsi ilə bağlıdır.

### Yenilik qanunsuz endirimlərə son qoyacaq

Qanunla qadağan olunsa da, indiyə qədər sığorta şirkətləri öz marjaları daxil olmaqla müştəriyə 30%-ə qədər endirim edə bilirdilər. Nəzərdə tutulan yeniliyə əsasən, müştərilərə verilən nağd sığorta ödənişlərinin birbaşa təmirlə əvəzlənməsi bu cür neqativ halların aradan qaldırılmasına şərait yaradacaq. Məsələ burasındadır ki, sığorta şirkətləri müştərilərə verilən nağd sığorta ödənişlərini sənəddə göstəriləndən az ödəyirlər. Xərclərini bu şəkildə azaltmaq sığorta şirkətinə imkan verir ki, müştəriyə daha çox endirim edə bilsin. Ona görə də bazarda avtomobillərin icbari sığortası üzrə 30%, hətta 40%-ə çatan endirimlərə rast gəlmək olur. Nağd ödənişin birbaşa təmirlə əvəzlənməsi isə sığorta şirkətlərinin icbari avtosığorta üzrə ödəniş xərclərini artıracaq. Zərərin artması ilə sığorta şirkətləri müştərilərə yüksək endirim edə bilməyəcək.

### Avtomobil sahibləri razı qalacaq

Sığorta ödənişlərinin birbaşa təmirlə əvəzlənməsinin müştərilər arasında narazılıq yarada biləcəyi istisna edilir, əksinə, təmirin keyfiyyəti artırılacaq, vahid qiymətləndirmə sisteminin fəaliyyəti genişləndiriləcək. Bundan əlavə, sığorta şirkətlərinin əməkdaşlıq edəcəyi servislərin keyfiyyət reytinqi müəyyən ediləcək. Sığorta şirkəti avtomobilin təmirini ən uyğun və keyfiyyətli təmir təklif edən servisə həvalə edəcək.

Qeyd edək ki, «İcbari sığortalar haqqında» Qanuna əsasən, hazırda avtomobillərin icbari sığortasında nağd pul vəsaitinin ödənilməsi və avtomobilin təmir etdirilməsi sistemi tətbiq olunur.

# Əmək müqavilələrinin rəsmiləşdirilməsi

*- bu həm dövlətin, həm də vətəndaşın mənafeyinə xidmət edir*

İşəgötürənlərlə işçi arasında əmək müqaviləsinin imzalanmaması respublikamızın əmək bazarının ən ağrılı problemlərindən biridir. Bir çox şirkətlərdə, ticarət və xidmət müəssisələrində vergi və sosial sığorta ödənişlərindən yayınmaq məqsədilə iş yerlərinin rəsmiləşdirilməməsi hallarına tez-tez təsadüf olunur. Hətta muzdlu işlə əlaqədar əməkhaqqından tutulan gəlir vergisi hesabatlarında da göstərilən rəqəmlər real vəziyyəti əks etdirmir.

Bu cür neqativ hallarla mübarizədə ölkə başçısının verdiyi tapşırığın icrasını diqqət mərkəzində saxlayan Vergilər Nazirliyi digər dövlət qurumları ilə birgə əmək münasibətlərinin rəsmiləşdirilməsi sahəsində sistemli iş aparır. Hələ beş il bundan əvvəl - 2012-ci ilin iyul ayında vergilər nazirinin əmri ilə «İşəgötürənlər tərəfindən iş yerlərinin rəsmiləşdirilməməsi hallarının qarşısının alınması istiqamətində görüləcək işlərə dair tədbirlər planı» təsdiq olunmuş və bu sahəyə çevik nəzarəti təmin etmək üçün qərargah yaradılmışdır.

O vaxtdan bəri keçirilən əmək müqavilələrinə nəzarət tədbirləri zamanı bir çox vergi ödəyicilərində işçi sayının azaldılması halları aşkarlanaraq, onların barəsində məsuliyyət qərarları çıxarılmışdır.

Qanunvericiliyin imkan verdiyi inzibati vasitələrlə yanaşı, maariflənləndirmə tədbirlərindən də geniş iştifadə edilir: əmək müqaviləsinin imzalanmasının zəruriliyi, yaratdığı üstünlüklər, işçilərin pensiya təminatındakı rolu, qanunvericilikdə aparılmış dəyişikliklər və digər mühüm məqamlar insanlara geniş izah olunur. Mütəmadi olaraq vergi ödəyiciləri ilə keçirilən görüşlərdə, yazılı bildirişlərdə onların diqqətinə çatdırılır ki, əmək müqaviləsinin bağlanması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemində əmək müqaviləsi bildirişinin qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra hüquqi qüvvəyə minir. Əmək müqaviləsi bildirişini elektron informasiya sisteminə daxil etmək işəgötürənin vəzifəsi kimi müəyyən edilmişdir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənlərin və ya onların səlahiyyət verdiyi şəxslərin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza» olmalıdır. «ASAN imza» sertifikatının alınması üçün «ASAN xidmət» mərkəzlərinə və ya Vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etmək lazımdır.

Onu da qeyd edək ki, Nazirlər Kabineti əmək müqaviləsi bildirişinin formaları və onun elektron informasiya sisteminə daxil edilməsi qaydaları, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə göndərilən məlumat forması, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı qaydaları təsdiqləyib. Qaydalara görə, elektron informasiya sisteminə əmək müqaviləsi bildirişinin daxil edilməsi «Elektron hökumət» portalı vasitəsilə həyata keçirilir. Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi «Elektron hökumət» portalının gücləndirilmiş elektron imza ilə daxil olmağa imkan verən autentifikasiya vasitələrindən istifadə etməklə bilavasitə işəgötürən tərəfindən və ya «Elektron hökumət» portalında yerləşdirilmiş «Səlahiyyətli şəxsin qeydiyyatdan keçirilməsi» xidməti vasitəsilə işəgötürənin səlahiyyət verdiyi şəxslər tərəfindən həyata keçirilir. Əmək müqaviləsində dəyişiklik edilməsi ilə bağlı müəyyən məlumatlar elektron informasiya sisteminə daxil edildikdən sonra məlumat bazasında saxlanılır və bununla bağlı bir iş günündən gec olmayaraq işəgötürənə məlumat verilir. İşəgötürən məlumatı çap edərək mühafizə edilən aidiyyəti əmək müqaviləsi ilə birlikdə beş il müddətinə saxlamalı və işçinin müraciəti əsasında bildirişin və məlumatın surətini ona təqdim etməlidir.

Qaydalara görə, işçinin onunla bağlı qeydiyyata alınmış müvafiq əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etmək imkanları elektron informasiya sistemi vasitəsilə təmin olunur. Hər bir işçi özünə aid əmək müqaviləsi bildirişinin məlumatlarını «Elektron hökumət» portalının mövcud autentifikasiya vasitələrinin köməyi ilə əldə edə bilər.

Xatırladırıq ki, işəgötürənlər tərəfindən əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi Vergi Məcəlləsinin 58.10-cu, İnzibati Xətalar Məcəlləsinin 192.1-ci və Cinayət Məcəlləsinin 162-1-ci maddələri ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Belə ki, Vergi Məcəlləsinin 58.10-cu maddəsinə əsasən Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə işəgötürənə hər bir belə şəxs üzrə 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

İnzibati Xətalar Məcəlləsinin 192.1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə fiziki şəxslər min manatdan iki min manatadək məbləğdə, vəzifəli şəxslər üç min manatdan beş min manatadək məbləğdə, hüquqi şəxslər iyirmi min manatdan iyirmi beş min manatadək məbləğdə cərimə edilir.




**Əmək müqaviləsi bildirişini elektron informasiya sisteminə daxil etmək işəgötürənin vəzifəsi kimi müəyyən edilmişdir**

Cinayət Məcəlləsinin 162-1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yeddi min manatdan on min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Eyni əməllər təkrar törədildikdə üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Cinayət Məcəlləsinin 162-1-ci maddəsinin «Qeyd» hissəsinə əsasən həmin maddədə «xeyli sayda» dedikdə, on nəfər və ondan çox olan işçilərin sayı nəzərdə tutulur.

**Vergilər Nazirliyi bir daha xəbərdarlıq edir ki, işçilərin əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi hallarının qarşısı gələcəkdə də qətiyyətlə alınacaq, intizamsız vergi ödəyicilərinə qarşı qanunvericilikdə nəzərdə tutulan ən sərt tədbirlər görüləcəkdir.**

**Rəşad SADIQOV**

# Əmək müqaviləsi bildirişi alanların sayı artır

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sisteminə cari ilin iyul ayında ötən ilin müvafiq dövrünə nisbətən 28,2 faiz (46,6 min müraciət) çox, yəni 212.020 dəfə müraciət edilib.

Bu müraciətlərdən 167.898-i «Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi» e-xidmətinə yönəlib.

Bu e-xidmət işəgötürənlərə işçilərlə bağladıqları əmək müqavilələrini, müqaviləyə dəyişiklikləri və ya xitam verilməsini müvafiq bildiriş formasında sistemdə qeydiyyatdan keçirərək rəsmiləşdirməyə xidmət edir. Müraciətlərin 17.687-si «Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi», qalan hissəsi isə «İş yerinə dair arayış» e-xidmətinə aid olub. Bu e-xidmətlər isə işçilərə onlarla əlaqədar sistemə daxil edilən bildirişlər barədə məlumat öyrənmək, habelə öz iş yerləri barədə elektron qaydada arayış əldə etmək imkanı verir.

Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemi ölkəmizin sosial-iqtisadi münasibətlər sisteminin mühüm elementi olaraq əmək münasibətlərinin və bu münasibətlərdə baş verən dəyişikliklərin elektron müstəvidə rəsmiləşdirilərək şəffaflaşdırılmasına xidmət edir. Bununla işçi və işəgötürənlərin əmək münasibətləri sahəsində hüquqlarının əsaslı təminat vasitəsi olan həmin sistem eyni zamanda əmək bazarına nəzarətin çevik və səmərəli təşkilinə, əmək münasibətlərinin dolğun və obyektiv uçotunun aparılmasına şərait yaradıb.

Mötəbər beynəlxalq qurumların müasir dünyanın qabaqcıl təcrübələrindən biri kimi dəyərləndirdiyi, BMT-nin ixtisaslaşdırılmış qurumu olan Beynəlxalq Telekommunikasiya İttifaqının «Çempion layihə» mükafatına layiq görülən bu sistem «Elektron hökumət» portalında geniş istifadəçi auditoriyası ilə seçilir. Tətbiqinə başlanıldığı 2014-cü ilin iyul ayından bəri Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sisteminə müraciətlərin sayı 9 milyon 80 mini ötüb. Bu isə indiyədək «E-hökumət» portalına müraciətlərin 17,5 faizini təşkil edir.

**Fəxriyyə İKRAMQIZI**

# Vergi ödəyicilərinin hüquq və mənafeləri qorunur

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanovanın təşəbbüsü və təşkilatçılığı ilə hər il avqustun 21-dən sentyabrın 21-dək bütün dövlət qurumlarında və regionlarda keçirilən «Sülh aylığı» artıq bir ənənəyə çevrilmişdir.
Vergi orqanları tərəfindən «İnsan hüquq və azadlıqlarının müdafiəsi, o cümlədən sahibkarların hüquqlarının müdafiəsinin daha da möhkəmləndirilməsi» mövzusunda keçirilən görüşlərdə vergi ödəyicilərinin Vergi Məcəlləsi ilə təsbit edilmiş hüquq və vəzifələri, göstərilən elektron xidmətlər, Vergilər Nazirliyinin Çağrı Mərkəzi, rəsmi internet səhifəsi, vergi ödəyicilərinə xidmət mərkəzlərinin fəaliyyəti və s. barədə ətraflı məlumatlar verilir.

***Vergi qanunvericiliyində edilmiş dəyişikliklər vergi ödəyicilərinin hüquq və mənafelərinə xidmət edir***

Vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması və vergi ödəyicilərinin hüquqlarının qorunması ön planda dayanan məsələlərdən olduğu üçün vergi qanunvericiliyi müasir dövrün tələblərinə uyğun olaraq daim təkmilləşdirilir. Bu baxımdan, vergi qanunvericiliyində edilmiş dəyişikliklərin böyük əksəriyyəti vergi ödəyicilərinin hüquq və mənafelərinin qorunmasına yönəldilmişdir. Vergi Məcəlləsində vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydaları, vergi ödəyiciləri və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət və s. ödəyicilərin mənafeyi nəzərə alınaraq təkmilləşdirilmişdir.

Aqrar sektorun inkişafını stimullaşdırmaq məqsədilə kənd təsərrüfatı istehsalçıları, torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad olunmuş, fiziki şəxslərin əmanətləri üzrə ödənilən faiz məbləğlərindən gəlir vergisinin tutulmasına güzəştlər tətbiq edilmişdir.

Əlillərin, məcburi köçkün və qaçqınların, əhalinin güzəşt hüququ olan digər kateqoriyalarının maddi vəziyyətinin yaxşılaşdırılması məqsədilə onların aylıq gəlirlərinin vergidən azad olunan məbləğləri 2 dəfəyədək artırılmışdır.

Birinci və ikinci qrup müharibə əlillərinə muzdlu işlə əlaqədar aylıq gəlirinin vergi tutulan məbləğinin 400 manat məbləğində azaldılmasını nəzərdə tutan güzəşt hüququ bütün qruplardan olan müharibə əlillərinə şamil edilmişdir. Fiziki şəxslərin gəlir vergisinin hesablanmasında edilmiş son dəyişikliklər vətəndaşların gəlirlərinin böyük hissəsinin onların sərəncamında qalmasına şərait yaratmaqla yanaşı, əməkhaqlarının leqallaşdırılması istiqamətində aparılan iqtisadi təşviqetmənin tərkib hissəsi hesab edilir.

***Region sahibkarlarının mariflǝndirilmǝsindǝ açıq dialoq formasına üstünlük verilir***

Azərbaycan Respublikası Prezidentinin imzaladığı «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» Sərəncamına uyğun olaraq vergi qanunvericiliyinə 2017-ci il yanvarın 1-dən edilmiş əlavə və dəyişikliklərin əsas məqsədi sahibkarlığın, xüsusilə də kiçik və orta biznesin inkişafı üçün daha əlverişli şəraitin yaradılması, vergi yükünün azaldılması, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimadın formalaşdırılması, dürüst və şəffaf uçotun qurulmasıdır. Bu il qüvvəyə minmiş Vergi Məcəlləsində dəyişikliklərin 123-ü vergi inzibatçılığının, o cümlədən vergi uçotunun təkmilləşdirilməsi və şəffaflaşdırılması, 34-ü vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, 8-i vergi yükünün azaldılması, vergi güzəştləri və vergidən azadolmalarla bağlıdır. Vergi qanunvericiliyində edilmiş bu və digər əlavə və dəyişikliklərin sahibkarlara çatdırılması, onların məlumatlandırılması ilə bağlı hər il regionlarda Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxsləri ilə vergi ödəyiciləri arasında silsilə görüşlər keçirilir. Bu görüşlər əsasən sual-cavab formasında dialoq şəraitində qurulur. Cari il yanvar ayının 16-dan 29-dək ölkəmizin regionlarında keçirilən görüşlər belə tədbirlərdən idi. Tədbirlərdə vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov, Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentin, Ərazi vergi orqanları ilə iş üzrə departamentin, Ərazi vergi departamentləri və idarələrinin rəhbərləri, habelə rayon icra hakimiyyəti başçılarının müavinləri iştirak etmiş və ölkənin bütün rayonlarını təmsil edən 3500-ə yaxın vergi ödəyicisinin iştirakı təmin edilmişdir. Görüşlərdə hər bir sahibkara onu maraqlandıran suallarla birbaşa vergilər nazirinin müavininə və digər rəhbər vəzifəli şəxslərə müraciət etmək imkanı yaradılmışdır.

Vergi qanunvericiliyində edilmiş dəyişikliklərin böyük əksəriyyəti vergi ödəyicilərinin hüquq və mənafelərinin qorunmasına yönəldilmişdir

***Partnyorluq sazişi vergi ödəyicilərinin mənafeyinə xidmət edir***

Vergi qanunvericiliyinə vergi orqanları ilə vergi ödəyiciləri arasında əməkdaşlıq münasibətlərinin qurulmasını təmin edən normaların daxil edilməsi xüsusi yer tutur. Bu, ölkəmizin təcrübəsində ciddi yenilik hesab olunur. Vergi partnyorluğu sazişi vergi orqanı ilə vergi ödəyicisi arasında risklərin minimallaşdırılması məqsədilə könüllü şəkildə bağlanmış niyyət razılaşmasıdır. Bu, vergi inzibatçılığı prosesində vergi orqanları ilə vergi ödəyicisi arasında münasibətlərin tamamilə yeni əsaslarda qurulması deməkdir. Nazirlər Kabinetinin 2013-cü il 19 iyul tarixli qərarı ilə təsdiq edilmiş «Vergi partnyorluğu sazişinin forması»nın və «Vergi partnyorluğu sazişinin bağlanması qaydaları» bu istiqamətdə işlərin başlanmasına normativ-hüquqi zəmin yaradıb. Vergi partnyorluğu sazişi sahibkarlığa lüzumsuz müdaxilələrin qarşısını almaqla onun inkişafını stimullaşdırmaq, əməkdaşlığa, qarşılıqlı etibarlılığa və şəffaf münasibətlərə əsaslanan birgə fəaliyyəti təmin etmək, müasir idarəetmə alətləri vasitəsilə biznes subyektlərini vergi orqanlarının fəaliyyətinə cəlb etmək, vergilərin ödənilməsi ilə bağlı könüllü əməletmə səviyyəsinin artırılması istiqamətində partnyorluq etmək, ədalətli, çevik, effektiv və səmərəli vergi nəzarəti yaratmaq, vergi risklərini minimallaşdırmaq məqsədi daşıyır.

Ən vacibi isə budur ki, saziş vergi ödəyicilərinin fəaliyyətinə müdaxilələrin azalmasına gətirib çıxarır. Sazişi imzalamış vergi ödəyiciləri özlərindən asılı olmayan səbəblərdən yol verdikləri müəyyən xətalara görə müvafiq sanksiyalardan qurtula bilirlər. Bununla yanaşı, partnyorluq sazişini imzalayan sahibkarların vergi orqanlarından zəruri informasiyaları almaq imkanları daha da genişlənir, onlar biznesin inkişafı ilə bağlı gələcəkdə yarana biləcək vergi öhdəlikləri barədə əvvəlcədən məlumatlı olurlar. Sazişin qüvvədə olduğu dövr ərzində vergi orqanı tərəfindən qanunvericilikdə və vergi inzibatçılığında aparılan dəyişikliklər barədə vergi ödəyicisi operativ qaydada məlumatlandırılır, vergi öhdəliklərinin yerinə yetirilməsində ona lazımi metodiki kömək göstərilir.




***İntizamlı vergi ödəyiciləri bir sıra imtiyazlar əldə edir***

Vergilər Nazirliyinin qarşısına qoyulan vəzifələrdən biri də vergi öhdəliklərini tam və vaxtında yerinə yetirən, vergi qanunvericiliyinə əməl edən intizamlı vergi ödəyicilərinin seçilib fərqləndirilməsi və fəaliyyətlərinin təşviq olunmasıdır. Sentyabrın 15-dək Vergilər Nazirliyi tərəfindən intizamlı vergi ödəyicisi meyarlarına cavab verən vergi ödəyicilərinin siyahısı müəyyən olunaraq vergi ödəyicilərinə xidmət orqanlarına təqdim edilir. Vergi ödəyicilərinə xidmət orqanları isə sentyabrın 25-dək həmin siyahı üzrə intizamlı vergi ödəyicisi sertifikatları təqdim edilir. Sertifikatlar 3 il müddətinə verilir və sertifikata layiq görülən intizamlı vergi ödəyiciləri həmin müddətdə aşağıdakı imtiyazlardan istifadə hüququna malikdirlər:

- səyyar vergi yoxlamasının keçirilməməsi;
- vergi orqanlarına edilmiş yazılı müraciətlərin 5 gün ərzində cavablandırılması;
- vergi ödəyicilərinə xidmət mərkəzlərində yalnız intizamlı vergi ödəyiciləri üçün nəzərdə tutulmuş xüsusi pəncərələrdən istifadə və ya növbə gözləmədən müraciət imkanı;
- Vergilər Nazirliyinin Çağrı Mərkəzində yalnız intizamlı vergi ödəyiciləri üçün nəzərdə tutulan xüsusi xətdən istifadə imkanı;
- vergi orqanının kütləvi informasiya vasitələrində, o cümlədən rəsmi elektron səhifələrində vergi ödəyicisinin intizamlı vergi ödəyiciləri siyahısında olması barədə məlumatın yerləşdirilməsi;
- vergi qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı təkliflərin onların iştirakı ilə müzakirə edilməsi imkanı veriləcək, ünvanlı səyyar xidmətlər göstəriləcək.

Vergilər Nazirliyi elektron xidmətlərin təkmilləşdirilməsi prosesini mütəmadi olaraq davam etdirir və son bir neçə ildə bu daha intensiv xarakter alıb

***Əsas hədəf vergi ödəyicilərinə keyfiyyətli xidmət göstərməkdir***

Vergilər Nazirliyi elektron xidmətlərin təkmilləşdirilməsi prosesini mütəmadi olaraq davam etdirir və son bir neçə ildə bu daha intensiv xarakter alıb. Hazırda Vergilər Nazirliyi vergi ödəyicilərinə 63 növ elektron xidmət göstərir və bu xidmətlərin növləri və əhatə dairəsi ilbəil genişlənir. Vergi ödəyicilərinin və vergi orqanı əməkdaşlarının bəyannamə və ərizə formalarının tərtibatına və yenidən tərtibatına sərf etdiyi vaxtın azaldılması, hesabat və ərizələrin vaxtında təqdim edilməsi, vergi ödəyicilərinin «ASAN imza»dan istifadələrinin stimullaşdırılması və s. istiqamətlərdə aparılan işlərin nəticəsi olaraq, nazirliyin təqdim etdiyi elektron xidmətlərdən istifadə edənlərin sayı nəzərəçarpacaq dərəcədə arıb.

Vergi sistemində həyata keçirilən yeniliklərlə bağlı vergi ödəyicilərinin maarifləndirilməsində rəsmi internet səhifəsi əvəzsiz rol oynayır. Bu ilin birinci yarısında rəsmi internet səhifəsinə daxil olan istifadəçilərin sayı 2.756.106-ya çatmışdır. Nazirliyin rəsmi internet səhifəsindəki «Sual-cavab» bölməsi vasitəsilə 1707 sual cavablandırılmışdır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 587 sual və ya 1,5 dəfə çoxdur.

Vergi ödəyiciləri öz vergi öhdəliklərini vaxta qənaət edərək internet üzərindən nağdsız qaydada və ya yaxınlıqda olan ödəniş terminalı vasitəsilə yerinə yetirə bilmələri məqsədilə nazirliyin rəsmi internet səhifəsində «Vergiləri necə ödəyək» adlı bölmədən ətraflı məlumatlar almaq imkanına malikdirlər. Burada vergilərin ödənilməsi üçün yaradılan xidmətlərdən istifadə qaydaları, prosesin ardıcıllığı həm yazılı, həm də videotəsvir formasında yerləşdirilmişdir. Rəsmi internet saytı vasitəsilə vergi ödəyicilərinə yuxarı vergi orqanına şikayət etmək, habelə vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi barədə təkliflər təqdim etmək mümkündür. Sahibkarların maarifləndirilməsi və məlumatlandırılması məqsədilə biznesin qurulması prosesini mərhələli şəkildə və əyani misallarla əks etdirən «Biznesə necə başlamalı?» maarifləndirici praktiki vəsait və müvafiq baner hazırlanaraq internet səhifəsində yerləşdirilmişdir.

**Rəşad SADIQOV**

# Qeyri-neft sektoru xarici sərmayəçilər üçün cəlbedicidir

2017-ci ilin ilk yarısında Azərbaycanın qeyri-neft sektoruna investisiya qoymuş xarici şirkətlərin sərmayələri ötən ilin müvafiq dövrü ilə müqayisədə 5 %-dən çox artıb. Qeyri-neft sektoruna investisiya qoyuluşu həyata keçirmiş əsas xarici investorların üçlüyünü Türkiyə, Rusiya və İsveçrə təşkil edir. Sonrakı yerlərdə Böyük Britaniya, Niderland, Cənubi Koreya, Çin, Belarus gəlir. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, cari ilin ilk 6 ayı ərzində qeyri-neft sektoruna yatırılmış 2 milyard 794,6 milyon manat kapitalın cəmi 40%-i daxili, qalan hissəsi isə xarici mənbələrin payına düşüb. Sərmayənin 78,6%-i istehsal obyektlərini, 16%-i xidmət sahələrini, 5,4%-i isə digər sahələri əhatə edib.

İqtisadiyyat naziri Şahin Mustafayev bildirib ki, Azərbaycan hökumətinin həyata keçirdiyi yeni islahatlar kursuna əsasən, xarici şirkətlərin hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara eyni şəraitin yaradılması, əldə edilmiş mənfəətdən maneəsiz istifadə olunması ilə bağlı əlavə tədbirlər görülməkdədir. Xarici şirkətlərə bir sıra güzəştlər edilib. Biznes qeydiyyatı sistemi sadələşdirilib, investisiyalarla bağlı mexanizmlər təkmilləşdirilib, vergi yükü azaldılıb, investorların hüquqlarının müdafiəsinin işlək mexanizmləri yaradılıb və əlverişli biznes mühiti formalaşdırılıb. Bütün bunlar Azərbaycanda fəaliyyətə başlayan xarici şirkətlərin sayının artmasına öz müsbət təsirini göstərib. 2004-2017-ci illər ərzində ölkəmizdə 7 mindən artıq xarici investisiyalı şirkət qeydiyyatdan keçib. Bunlar ticarət, xidmət, tikinti, sənaye, nəqliyyat, bank və sığorta, rabitə, kənd təsərrüfatı kimi sahələri əhatə edir.

Tranzit və logistika əməliyyatlarının səmərəliliyi, yeni fəaliyyətə başlayan Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının malların tranziti üzrə bir sıra güzəştli tariflər tətbiq etməsi və tarifləri aşağı salması xarici şirkətlərin Azərbaycana marağını artırıb. Bütün bu amillər ölkənin tranzit yükdaşımaları imkanlarının artırılması və xarici şirkətlərin bu proseslərdə iştirakı üçün əlverişli şərait yaradır.

Ş. Mustafayev bildirib ki, xarici şirkətlərin son dövrlərdə daha böyük marağına səbəb olan sahələr və həyata keçirmək istədikləri investisiya layihələri sənaye zonaları, turizm, qida emalı və əczaçılıq kimi sahələri əhatə edir. Respublikamız üçün yeni sənaye sahəsi olan əczaçılıq məhsulları istehsalı məqsədilə artıq iki dərman zavodunun təməli qoyulub. «Diamed Co» zavodunun tikintisinə isə yaxın zamanlarda başlanılacaq. Bunlarla yanaşı, hazırda Türkiyənin, BƏƏ-nin, Yaponiyanın və Cənubi Koreyanın aparıcı şirkətləri ilə əczaçılıq məhsullarının birgə istehsalının təşkili nəzərdə tutulur. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) xarici investisiya qoyuluşunu dəstəkləmək, yerli və xarici sahibkarlara müxtəlif biznes xidmətlərinin göstərilməsi, iş adamlarının işgüzar əlaqələrinin genişləndirilməsi, ölkə iqtisadiyyatının qeyri-neft sahəsində müddətli investisiya qoyuluşlarının həyata keçirilməsi, yerli və xarici investisiyaların qeyri-neft sektoruna cəlb edilməsi ilə bağlı əcnəbi şirkətlərlə işgüzar görüşləri artırıb.

Ölkəmizdə həyata keçirilən səmərəli vergi siyasəti də xarici sərmayələrin axınına geniş şərait yaradıb. 2017-ci ildən vergi qanunvericiliyində yeni güzəşt və azadolmaların tətbiq olunması da xarici investorların fəaliyyətinin stimullaşdırılmasına, bölgələrdə qeyri-neft sahələri üzrə əlavə müəssisə və təşkilatların yaranmasına, kiçik sahibkarların sayının artmasına təkan verib. İnvestisiyaların təşviqi və əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər nəticəsində son dövrlərdə vergi güzəşt və azadolmalarının sayı artıb. Hazırda Vergi Məcəlləsində 104 azadolma və 25 güzəşt növü olmaqla, cəmi 129 güzəşt və azadolma mövcuddur ki, bu, digər ölkələrin sahibkarlarına edilən güzəştlərlə müqayisədə ən böyük göstərici deməkdir. Vergi islahatlarının əsas istiqamətlərindən biri əlverişli işgüzar mühitin yaradılması ilə xarici investorların ölkəyə cəlb olunmasını əhatə edir. Azərbaycanın beynəlxalq müqavilələrə qoşulması investisiyaların təşviqi və qorunması, gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması xarici investisiyaların ölkə iqtisadiyyatına axınının stimullaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri»ndə xarici investisiyaların stimullaşdırılması ilə bağlı müəyyən edilmiş hədəflərin böyük bir qismi xarici investorların qeydiyyatının daha da asanlaşdırılmasına yönəldilib. Hədəflər sırasında birbaşa xarici investisiya strategiyasının həyata keçirilməsi, özəlləşdirmə və birbaşa xarici investisiya üçün uyğun investorların cəlb olunması, kiçik və orta sahibkarlıq subyektlərinin beynəlxalq ticarət əməliyyatları üçün maliyyə xidmətlərinin genişləndirilməsi və birbaşa xarici investisiyaların təşviqi, xarici investorların yerli maliyyə bazarına çıxış imkanlarının artırılması nəzərdə tutulur.




Vergi qanunvericiliyində yeni güzəşt və azadolmaların tətbiq olunması da xarici investorların fəaliyyətinin stimullaşdırılmasına, bölgələrdə qeyri-neft sahələri üzrə əlavə müəssisə və təşkilatların yaranmasına, kiçik sahibkarların sayının artmasına təkan verib

**E.CƏFƏRLİ**

Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

## Vəsaitlərin xərclənməsi

***Dövlət satınalma müqaviləsi ilə müəyyən edilmiş işlərin (xidmətlərin) yerinə yetirilməsi üçün dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitlərin xərclənməsi «Nağdsız hesablaşmalar haqqında» Qanunun 3.3-cü maddəsi ilə müəyyən olunmuş hədlər (15.000 və ya 30.000) daxilində nağd qaydada həyata keçirilə bilərmi?***

«Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikasının Qanununun 3.4-cü maddəsində göstərilmişdir ki, qanunun 3.3-cü maddəsinin müddəalarından asılı olmayaraq bu maddədə qeyd olunan hesablaşmalar yalnız nağdsız qaydada həyata keçirilir.

Dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitin istifadəsinin (xərclənməsinin) yalnız nağdsız qaydada həyata keçirilməsi adıçəkilən qanunun 3.4.7-ci maddəsində təsbit edilmişdir.

Vergi Məcəlləsinin 58.7-1-ci maddəsinə əsasən, «Nağdsız hesablaşmalar haqqında» Qanunun 3.4.7-ci maddəsinin tələbinin pozulmasına görə ödənişi həyata keçirən vergi ödəyicisinə qanun pozulmaqla aparılan əməliyyatın ümumi məbləğinin təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə isə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

**Qeyd olunanlara əsasən:**

Dövlət satınalma müqaviləsi ilə müəyyən edilmiş işlərin (xidmətlərin) yerinə yetirilməsi üzrə müəssisənin bank hesabına daxil olan vəsaitlərin xərclənməsi yalnız nağdsız qaydada həyata keçirilməlidir.

Suallarınızı redaksiyamızın ünvanına:
AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az**
elektron poçt ünvanına göndərə bilərsiniz

# Dövlət proqramları regionların inkişafında həlledici rol oynayır

Regionların inkişafı Azərbaycan dövlətinin sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsini təşkil edir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına təkan verir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 27 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nda bütün regionlarda mövcud potensialdan daha səmərəli istifadə etməklə qeyri-neft sektorunun inkişafı, kommunal xidmət və digər infrastruktur obyektlərinin, yeni istehsal və emal müəssisələrinin yaradılması, mövcud müəssisələrdə istehsal fəaliyyətinin genişləndirilməsi, rabitə və informasiya texnologiyalarının tətbiqinin sürətləndirilməsi, sosial infrastrukturun yaxşılaşdırılması, o cümlədən müasir standartlara uyğun təhsil, elm, səhiyyə, mədəniyyət və idman obyektlərinin inşası, yenidən qurulması, əlillər və şəhid ailələri üçün yaşayış binalarının tikintisi üzrə kompleks tədbirlər nəzərdə tutulmuş və hər bir region üzrə müxtəlif sahələri əhatə edən tədbirlər uğurla icra olunur.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2017-ci ilin əvvəlindən regionlarda davamlı iqtisadi inkişafın təmin edilməsi, makroiqtisadi göstəricilərin yaxşılaşdırılması istiqamətində bir sıra işlər görülmüş, qeyri-neft sənayesində cari ilin yanvar-iyun aylarında məhsul istehsalı 4,4%, informasiya və rabitə xidmətləri 3,7%, nəqliyyat sektorunda yük daşınması 2%, pərakəndə ticarət 1,8% artmış, xarici ticarət balansının saldosu müsbət - 1,9 milyard ABŞ dolları təşkil etmişdir: «Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının icrasına başlanılan 2004-cü ildən 2017-ci ilin 6 ayı da daxil olmaqla ölkədə 1,79 milyon yeni, o cümlədən 1,33 milyon daimi iş yeri yaradılmışdır. Həmçinin üçüncü Dövlət Proqramının icrası çərçivəsində 2014-cü ildən bəri 452 mini daimi olmaqla 561,7 min iş yeri açılmışdır. 2017-ci ilin ilk 6 ayı ərzində açılmış yeni iş yerlərinin sayı isə 101 mini daimi olmaqla 122 mindir.

İqtisadiyyata yerli və xarici maliyyə resurslarının cəlb edilməsi üçün dövlətin təşviq mexanizmlərindən biri olan investisiya təşviqi mexanizmi özəl investisiyaların artımına ciddi töhfə verməkdədir. İndiyədək 158 sahibkarlıq subyektinə 169 investisiya təşviqi sənədi təqdim olunmuşdur ki, bu layihələrin reallaşması nəticəsində yerli istehsala 1,6 milyard manat investisiya yatırılacaq, 11 mindən çox yeni iş yeri açılacaqdır. İnvestisiya təşviqi sənədi almış 70 müəssisə artıq fəaliyyət göstərir, digərləri isə 2018-ci ilin sonuna qədər fəaliyyətə başlayacaqlar.

Milli Məclisin Regional siyasət komitəsinin üzvü Azər Badamov bildirmişdir ki, yerləşdiyimiz coğrafi mövqeyin, təbii şərtlərin əlverişli olması ölkədə geniş profilli kənd təsərrüfatının inkişaf etdirilməsinə imkan verir. Ona görə də iqtisadiyyatımızın tarixində kənd təsərrüfatı həmişə aparıcı sahə kimi insanların əsas məşğulluq və dolanacaq yeri olmuşdur: «Sovetlər dövründə də kənd təsərrüfatımız yüksək inkişaf yolu keçərək Azərbaycan kənd təsərrüfatının inkişafına görə ümumittifaq miqyasında önə çıxmışdı. Sovet İttifaqının iqtisadi sisteminin dağılması sayəsində ölkəmizin iqtisadiyyatında da geriləmələr oldu. Dağılmış iqtisadiyyatı bərpa etdirməyin yeganə yolu neft sənayesinin dirçəldilməsindən keçirdi. O dövrdə ölkə rəhbərliyi Azərbaycanın neft sənayesini dirçəltmək üçün milyardlarla dollar məbləğində xarici investisiya cəlb edə bildi və dövlət büdcəmizə neft gəlirləri gəlməyə başladı.

İqtisadiyyatın ikinci ən gəlirli sahəsi olan kənd təsərrüfatının inkişaf etdirilməsi üçün bu sahədə geniş islahatlara start verildi, torpaq kəndliyə qaytarıldı və torpağın sahibinə torpaq üzərində sərbəst qərar verməyə imkan yaradıldı.

2004-cü ildən başlayaraq Azərbaycanın inkişafına təkan verən və hamımızın şahidi olduğumuz regionların sosial-iqtisadi inkişafı üçün dövlət proqramları müstəsna rol oynadı. Bu proqramların yüksək səviyyədə mərhələli şəkildə icrası Azərbaycanın bütün regionlarında sosial infrastrukturu müasirləşdirdi və geniş iqtisadi layihələrin həyata keçirilməsi üçün tam şərait yaratdı».




Millət vəkili qeyd etmişdir ki, 2006-cı ildən başlayaraq iqtisadiyyatın diversifikasiyası məqsədilə dövlət büdcəsinin neftdən asılılığını aradan qaldırmaqla qeyri-neft sektorunun inkişafı üçün geniş iqtisadi layihələrin icrasına start verildi: «Bu məqsədlə qeyri-neft sektorunda kənd təsərrüfatının inkişaf etdirilməsi prioritet elan olundu və geniş güzəştlər tətbiq olunmaqla inkişaf proqramları təsdiq edildi. Artıq kənd təsərrüfatının ənənəvi sahələrinin inkişafına start verilmiş, əlavə torpaqların dövriyyəyə cəlb edilməsi, həmin sahələrdə müasir meliorativ suvarma sistemlərinin yaradılması ilə ölkədə pambıqçılığın, fındıqçılığın, baramaçılığın, tütünçülüyün inkişaf etdirilməsinə başlanılmışdır. Regionlarda müşavirələrin çağırılması, ölkə başçısının yerlərdə fermerlərlə görüşməsi və əkin sahələrində vəziyyətlə maraqlanması kəndlilərdə böyük ruh yüksəkliyinə səbəb olmuş, yüksək məhsuldarlıq əldə edilməsi üçün həvəs yaratmışdır. Cənab Prezidentin sədrliyi ilə keçirilən Saatlı müşavirəsindən sonra Azərbaycanda becərilən pambıq sahələrinin həcmi genişləndirilib, məhsuldarlıq bir neçə dəfə artmışdır. 2015-ci ildə 17 min hektarda pambıq əkilirdisə, 2017-ci ildə 136 minə çatdırılmaqla əkilən sahələr 10 dəfə artmışdır».A.Badamov demişdir ki, avqustun 4-də Qaxda baramaçılığın, tütünçülüyün və fındıqçılığın inkişafına həsr olunmuş ümumrespublika müşavirəsi Azərbaycanda texniki bitkilərin yetişdirilməsi istiqamətində yeni bir mərhələ olacaqdır: «Ölkə başçısı müşavirədəki çıxışında yaxın keçmişə ekskursiya etməklə sovetlər dövründə Azərbaycanın kənd təsərrüfatında qazandığı uğurlar haqqında danışaraq, yaxın gələcəkdə baramaçılığın, tütünçülüyün və fındıqçılığın inkişaf etdirilməsi ilə bağlı vəzifələri və hədəfləri müəyyənləşdirmişdir. Əsas hədəf isə istehsal olunan məhsulun xammal şəklində yox, son hazır məhsul şəkilində istehsal olunaraq bazara çıxarılmasıdır. Bu, ölkədə yüngül və yeyinti sənayesinin sürətli inkişafına gətirib çıxaracaq, həm də yeni iş yerlərinin açılmasına imkan verəcəkdir. Əgər biz statistikaya nəzər yetirsək, görərik ki, ölkə əhalisinin 40%-indən çoxu aqrar sektor olan bölgələrdə yaşayır. İqtisadiyyatın bu sahəsinin inkişafı ölkə əhalisinin 40%-nin işlə təmin olunması deməkdir.

Artıq tütünçülüyün inkişaf etdirilməsi ilə bağlı 2017-2021-ci illəri əhatə edəcək Dövlət Proqramı təsdiq olunmuşdur. Dövlət Poqramında ölkədə tütünçülüyün inkişaf etdirilməsi ilə əlaqədar görüləcək işlər və icra olunacaq vəzifələr konkret şəkildə müəyyənləşdirilmişdir. Düşünürəm ki, digər sahələr üzrə də konkret dövlət proqramlarının qəbulu ölkəmizdə istehsal olunan kənd təsərrüfatı məhsullarının keyfiyyət və kəmiyyət göstəricilərini artıracaq və dünya bazarlarına çıxarıla biləcək rəqabətqabiliyyətli məhsulların istehsalına imkan verəcəkdir. Gələcəkdə kənd təsərrüfatında, eləcə də yüngül və yeyinti sənayesi sahələrində istehsal olunacaq geniş çeşidli dünya standartlarına cavab verəcək məhsulların dünya bazarlarına ixracı ölkəmizə xarici valyuta axınını sürətləndirəcək. Bu da ölkənin daxili iqtisadiyyatını tarazlaşdıracaq, milli valyutamızın alıcılıq qabiliyyətini yüksəldəcək, işsizlik problemini birdəfəlik həll edəcək və ölkəmizi yeni bir inkişaf mərhələsinə çıxaracaqdır.

**F. İKRAMQIZI**

# İnvestisiya təşviqi mexanizmi uğurla həyata keçirilir

**İnvestisiya təşviqi sənədi investisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahəsi, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ, investisiya layihəsinin həyata keçiriləcəyi inzibati ərazi vahidləri ilə bağlı meyarlara tam cavab verən investisiya layihələrini təqdim etmiş sahibkarlara İqtisadiyyat Nazirliyi tərəfindən verilir.**

İqtisadçı ekspert Vüqar Bayramov bildirmişdir ki, bu sənədin qüvvəyə minməsi investisiya mühitinin yaxşılaşdırılmasına, investisiyanın təşviq edilməsinə müsbət təsir göstərir: «Bu sənədi əldə etməklə sahibkarlar 5 gün ərzində vergi və gömrük güzəştləri əldə edə bilirlər. Əsas məqsəd kənd təsərrüfatının inkişafı, bu sahədə investisiya qoyuluşları üçün əlverişli imkanların yaradılması, biznes mühitinin yaxşılaşdırılması, qeyri-neft ixrac potensialının artırılması, qeyri-neft sektorunun inkişafı baxımından kənd təsərrüfatı məhsullarının istehsalının əsaslı şəkildə genişləndirilməsi, idxalın əvəzlənməsi, yerli sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi və bu sahədə məşğulluğun artırılmasıdır. Düşünürəm ki, bu sənədin verilməsi və prosedurların asanlaşdırılması sahibkarların investisiya imkanlarını yaxşılaşdırır».

**Verilmiş 182 investisiya təşviqi sənədinin 70-i kənd təsərrüfatı, 112-i isə sənaye yönümlü layihələrdir**

İqtisadiyyat Nazirliyinin məlumatına görə, bu ayın əvvəlinədək 169 sahibkarlıq subyektinə 182 investisiya təşviqi sənədi təqdim edilib. İnvestisiya təşviqi sənədi verilmiş layihələrin reallaşması nəticəsində yerli istehsala 1,6 milyard manat investisiya yatırılması, 11 mindən çox yeni iş yerlərinin açılması nəzərdə tutulur.

İnvestisiya təşviqi sənədləri hesabına reallaşdırılacaq layihələrin biri Bakı şəhərində, 66-sı Bakıətrafı qəsəbələrdə və Abşeron rayonunda, 115-i isə digər iqtisadi rayonlarda həyata keçiriləcək. Verilmiş 182 investisiya təşviqi sənədinin 70-i kənd təsərrüfatı, 112-i isə sənaye yönümlü layihələrdir. Ən çox investisiya təşviqi sənədi intensiv bağçılıq, bostançılıq və çayçılıq, qida məhsullarının istehsalı, rezin və plastmas məmulatların istehsalı sahələrində reallaşdırılan layihələrə verilib.

Qeyd edək ki, investisiya təşviqi sənədi Azərbaycan Respublikasının Vergi Məcəlləsində və «Gömrük tarifi haqqında» Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş güzəştləri əldə etməyə əsas verən sənəddir. Bu güzəştlərə 7 il müddətinə mənfəət və ya gəlir vergisinin 50%-dən azadolma, torpaq və əmlak vergisindən tam azadolma, layihə çərçivəsində xaricdən idxal olunan texnika, texnoloji avadanlıq və qurğunun gömrük rüsumu və ƏDV-dən tam azadolması aiddir.

Eyni zamanda, investisiya təşviqi sənədləri əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların güzəştli şərtlərlə idxalı üçün 169 sahibkarlıq subyektinə 744 təsdiqedici sənəd təqdim edilib. Təsdiqedici sənədlər əsasında sahibkarlıq subyektləri tərəfindən əldə olunan ümumi güzəştin dəyəri 30,5 milyon ABŞ dollarıdır.

Azərbaycanda investisiya təşviqi mexaniziminin uğurla həyata keçirilməsi nəticəsində indiyədək verilmiş 173 investisiya təşviqi sənədi üzrə 1,6 milyard manatlıq investisiya qoyuluşu da nəzərdə tutulur.

İqtisadiyyat Nazirliyində keçirilmiş kollegiya iclasında bildirilib ki, bu layihələrin reallaşdırılması nəticəsində 11 mindən çox yeni iş yeri açılacaqdır. Ümumilikdə təqdim edilmiş sənədlərin 37%-i kənd təsərrüfatını, 63%-i isə sənaye sahələrini əhatə edir.

İnvestisiya təşviqi sənədi almış 83 müəssisə artıq fəaliyyət göstərir, digərləri isə 2018-ci ilin sonuna qədər fəaliyyətə başlayacaq.

**FƏXRİYYƏ**

# Qabaqcadan qeydiyyat mexanizmi vergidən yayınma hallarının azaldılmasına səbəb olacaqdır

Ölkəmizdə daşınmaz əmlakın idarəçiliyi və qeydiyyatı sahəsində müasir çağırışlara əsaslanan yeni mexanizmlər tətbiq olunur, bu sahənin təkmilləşdirilməsi ilə bağlı hərtərəfli işlər görülür. Bunlardan biri daşınmaz əmlakın qeydiyyatının səmərəsinin artırılması məqsədilə tətbiq olunan qabaqcadan qeydiyyat mexanizmidir.

Əmlak Məsələləri üzrə Dövlət Komitəsindən verilən məlumata görə, qabaqcadan qeydiyyat tikintisi hələ başa çatmadığı halda əmlakın müvafiq sənədlər əsasında qeydiyyata alınmasıdır. Bu mexanizmin bir sıra üstünlükləri var. Bundan sonra bir mənzilin bir neçə şəxsə satılması mümkün olmayacaq. Qabaqcadan qeydiyyat vasitəsilə inşa edilmiş çoxmərtəbəli binada yerləşən bir evin və ya qeyri-yaşayış sahəsinin bir neçə vətəndaşın adında olmaq ehtimalı olmayacaq. Eyni zamanda qabaqcadan qeydiyyat bir sıra iqtisadi və hüquqi əməliyyatların həyata keçirilməsini təmin edir. Ən vacib məsələlərdən biri də budur ki, çıxarış olmadan ipoteka, bağışlanma, girovqoyma kimi prosesləri yerinə yetirmək mümkündür. Bunlardan əlavə, yeni mexanizm alınan evin sahəsinin çox göstərilməsi kimi halların da qarşısını alır. Satılan mənzilin və ya obyektin həcminin, sahəsinin qanunvericiliklə müəyyən edilmiş qaydada dəqiq hesablamasına imkan verir. Eyni zamanda, qabaqcadan qeydiyyat vətəndaşın aldığı mənzilə görə ödədiyi məbləğin rəsmi hesablanmasını təmin edir, bu sahədə vergidən yayınma halları aradan qaldırılır.

Dövlət başçısının ipoteka kreditlərinin verilməsi şərtlərinə dəyişiklik edilməsi ilə bağlı 4 aprel 2017-ci il tarixli Fərmanı daşınmaz əmlakın qabaqcadan qeydiyyatının artmasına imkan verir. Dəyişikliyə əsasən ipoteka krediti ilə təkcə qeydiyyatdan keçirilmiş evləri deyil, qabaqcadan qeydiyyata alınmış mənzilləri də almaq mümkün olacaq. Bu isə vətəndaşlarda mənzil tikinti şirkətlərində qabaqcadan qeydiyyat mexanizminə marağı artıracaq.

**Qabaqcadan qeydiyyat vətəndaşın aldığı mənzilə görə ödədiyi məbləğin rəsmi hesablanmasını təmin edir, bu sahədə vergidən yayınma halları aradan qaldırılır**

Qabaqcadan qeydiyyatın aparılmasında məqsəd mənzillər üzərində fiziki və hüquqi şəxslərin hüquqlarının qabaqcadan qeydiyyata alınması yolu ilə onların mülkiyyət hüquqlarının qorunması, vətəndaşların aldıqları və ya inşa etdikləri əmlakdan səmərəli istifadə və maneəsiz sahiblik etməsidir. Bundan başqa, alğı-satqı zamanı baş verə biləcək qanun pozuntularının aradan qaldırılması, bazarda leqal əmlak sayının artırılması, vətəndaşların gələcəkdə daha operativ şəkildə çıxarışla təmin olunması da mexanizmin əsas vəzifələrindəndir. Mexanizm vasitəsilə bütün kateqoriyalara aid edilən əmlak - fərdi yaşayış, bağ evi, çoxmərtəbəli yaşayış binaları, həmin binadakı mənzillər, əmlak kompleksi, qurğular qabaqcadan qeydiyyata alına bilər. Hətta vətəndaşın kommersiya obyektlərini də hələ tikilməzdən əvvəl və ya tikintisi yarımçıq olduğu halda qabaqcadan qeydə almaq imkanı var.

Vətəndaş tikintiyə icazə sənədlərini, çertyoju və tələb olunan digər sənədləri təqdim etməklə əmlakının qabaqcadan qeydiyyatını apara bilər. Mülkiyyət hüququnun adi qaydada qeydiyyatından fərqli olaraq qabaqcadan qeydiyyat daşınmaz əmlakın dövlət reyestrindən verilən çıxarışla deyil, arayışla rəsmiləşdirilir. Arayışda ayrı-ayrı daşınmaz əmlak növləri üzrə lazımi məlumatlar da göstərilir. Sonradan həmin arayış və kredit müqaviləsi əsasında mənzilin kredit verən bankın xeyrinə ipotekası haqqında müqavilə bağlanır. Bu müqavilə notariat qaydada təsdiqlənərək dövlət reyestrində qeydiyyata alınır.

Tikinti şirkətləri binanın inşası zamanı tikilən hər mənzili əvvəlcədən qeydiyyata aldırmaqla həm öz işini asanlaşdırır, həm də vətəndaşların mənzil ehtiyaclarının təmin edilməsinə şərait yaradır. Qabaqcadan qeydiyyatın məbləğinə gəlincə, vətəndaşın ödəyəcəyi məbləğ əmlakın sahəsinə, yerləşdiyi əraziyə və digər parametrlərə görə dəyişir.

**AYTƏN**

# «Şəmkir Aqroparkı»nda beynəlxalq konfrans keçirilib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə avqustun 20-də rəsmi açılışı olmuş «Şəmkir Aqroparkı»nın Logistika Mərkəzinin təqdimatına və Mərkəzlə tanışlığa həsr olunmuş beynəlxalq konfrans keçirilib. Rəsmi açılış mərasimindən bir gün sonra keçirilmiş konfransda dövlət qurumlarının, ali təhsil və elmi tədqiqat müəssisələrinin, aqrar sahədə ixtisaslaşmış aparıcı yerli və xarici şirkətlərin nümayəndələri, ətraf rayonları təmsil edən fermerlər iştirak ediblər. Tədbirdə kənd təsərrüfatı sahəsində həyata keçirilən dövlət siyasəti, kənd təsərrüfatı məhsullarının istehsalı və emalının stimullaşdırılması, ixracın düzgün formalaşdırılması və Azərbaycan kəndlilərinin istehsal etdiyi məhsulların ölkə hüdudlarından kənara çıxarılması, rəqabətqabiliyyətli və ixracyönümlü kənd təsərrüfatı mallarının istehsalına dövlət dəstəyi məsələləri haqda çıxışlar dinlənilib.



«Şəmkir Aqroparkı»Azərbaycanın qərb regionunun ixrac imkanlarının genişləndirilməsində mühüm rol oynayacaq

Bildirilib ki, dünya iqtisadiyyatında davam edən neqativ proseslərdən qaynaqlanan amillərin Azərbaycan iqtisadiyyatına təsirinə baxmayaraq, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ötən illərdə ölkədə yaradılmış siyasi sabitliklə yanaşı, iqtisadiyyatın şaxələndirilməsi, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, sahibkarlığın inkişafı, eləcə də mövcud çağırışların tələblərinə uyğun çevik islahatlar sayəsində ölkə iqtisadiyyatı öz dayanıqlılığını möhkəmləndirir. Ölkə iqtisadiyyatının əsas prioritetlərindən olan qeyri-neft sektorunun inkişafında son illər ərzində mühüm nailiyyətlər əldə olunub, iqtisadiyyatın diversifikasiyası qeyri-neft sektorunun inkişafını təmin etməklə, onun ümumi daxili məhsulda xüsusi çəkisinin əhəmiyyətli şəkildə artımına səbəb olub. Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, qeyri-neft sektorunun mühüm sahəsi olan kənd təsərrüfatının inkişafı ilə bağlı strateji hədəflərin müəyyən edilməsi və institusional dəyişikliklərin həyata keçirilməsi, dövlət dəstəyinin gücləndirilməsi bu sahənin keyfiyyətcə yeni mərhələyə keçməsinin güclü təməlini qoyub. Kənd təsərrüfatında məhsuldarlığın artırılmasına nail olmaq üçün fermerlərə dövlət tərəfindən dəstək verilir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı» aqrar sektorda istehsalın artırılması, kənd təsərrüfatı istehsalçılarının qarşılaşdığı problemlərin həllinə nail olunması, bu sahənin ixrac imkanlarının gücləndirilməsi üçün dövlət tərəfindən ciddi dəstək verilməsini nəzərdə tutur. Bu dəstəyin mühüm formalarından biri də respublikamızın ayrı-ayrı bölgələrində aqroparkların yaradılması prosesinin sürətləndirilməsidir.

«Şəmkir Aqroparkı»nın təqdimatından sonra konfrans iştirakçıları təməli 2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə qoyulmuş «Şəmkir Aqroparkı»nın Logistika Mərkəzində yaradılmış şərait və fəaliyyət istiqamətləri ilə tanış olublar. Qonaqların diqqətinə çatdırılıb ki, Şəmkir rayonunda yaradılmış aqroparkda respublikada ilk dəfə müasir istixana kompleksi, şitillik, tinglik və intensiv bağçılıq təsərrüfatları, meyvə və tərəvəz emalı zavodları, tara istehsalı fabriki, logistika və aqroservis mərkəzi, soyuducu anbar, satış mərkəzləri, avtopark, elmi araşdırma və innovasiyalar mərkəzi, otel və müxtəlif infrastruktur müəssisələri inşa olunacaq. Aqroparkda müasir texnologiyaların tətbiqi ilə istehsal, emal, logistika - məhsulları saxlama, çeşidləmə, qablaşdırma, markalama, daşınma, daxili və xarici bazarlarda satış, yaşıl marketlər və fermer mağazaları üzrə fəaliyyətlərin vahid ərazidə cəmləşməsi nəticəsində rəqabətqabiliyyətli kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalına şərait yaradılacaq.

Mütəxəssislərin yekdil qənaətinə görə, regionlarda belə arqoparkların yaradılması, bu çərçivədə müxtəlif beynəlxalq layihələrin həyata keçirilməsi ölkənin ixrac potensialının artırılmasında və coğrafiyasının genişləndirilməsində, milli brendlərin yaradılmasında, kiçik və orta fermerlərin innovativ qabiliyyətinin artırılmasında, proqressiv metodların geniş tətbiqində, istehsalçı, emalçı və istehlakçı arasında inteqrasiya münasibətlərinin formalaşmasında, yüksək məhsuldarlığın əldə olunmasında, aqrar sahədə ixtisaslı kadrların hazırlanmasında və yeni iş yerlərinin açılmasında əhəmiyyətli rol oynayacaq. Aqroparkların yaradılması və inkişafı fermerlərə məsləhət, texniki, aqroservis və logistika xidmətlərinin göstərilməsinə, toxum, şitil, ting, dərman və gübrə ilə təmin olunmasına, kiçik fərdi istehsalçı səviyyəsindən genişmiqyaslı aqrar sənaye istehsalına keçidin, xarici bazarlara sabit və etibarlı çıxışın təmin edilməsinə şərait yaradacaq.

«Şəmkir Aqroparkı» bu baxımdan Azərbaycanın qərb regionunun ixrac imkanlarının genişləndirilməsində mühüm rol oynayacaq. Aqropark ölkənin ixrac əməliyyatları ilə məşğul olan aparıcı logistik mərkəzləri ilə əməkdaşlıq edəcək, yerli məhsulların «Made in Azerbaijan» brendi ilə ixracını və xaricdə yerləşən əsas istehlakçılara çatdırılmasını, eləcə də daxili bazara çıxarılmasını təmin edəcək.

Beynəlxalq konfrans, tədbirdə iştirak edən yerli və xarici şirkətlərin məhsullarının sərgi-nümayişi ilə davam edib. «Şəmkir Aqroparkı»nın Logistika Mərkəzinin ərazisində təşkil olunmuş kənd təsərrüfatı sərgisində beynəlxalq standartlara cavab verən istixana avadanlıqları, gübrə (torpaq və suda həll olunan) və dərmanlar, pestisidlər, şitil, ting və toxumlar, suvarma sistemləri, kənd təsərrüfatında istifadə olunan traktor, maşın, mexanizm və digər texnika nümunələri nümayiş etdirilib. Sərgiyə Azərbaycan, Türkiyə, İtaliya, Hollandiya, Çin və digər ölkələrdən kənd təsərrüfatı üzrə məhsul və avadanlıqların istehsalçıları və distribütorları qatılıblar.

Tədbir çərçivəsində Rusiya Federasiyasının «Evroxim» şirkəti tərəfindən Gəncə-Qazax iqtisadi zonasına həsr olunmuş «Məhsul gübrənin törəməsidir» adlı beynəlxalq seminar keçirilib. Seminarda aqrar sektorun qarşısında duran məsələlərlə bağlı geniş müzakirələr aparılıb. Bildirilib ki, bitkiçilik məhsullarının istehsalının artırılması məqsədilə bu sahənin gübrəyə və bitki mühafizəsi vasitələrinə olan tələbatının ödənilməsi üçün bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulur. Respublikanın müxtəlif bölgələrində gübrə və bitki mühafizəsi vasitələrinin topdan və pərakəndə satış şəbəkələrinin yaradılması, aqrokimyəvi, bitki mühafizəsi, karantin və toxumçuluq xidmətlərinin maddi-texniki bazasının möhkəmləndirilməsi və fəaliyyətinin gücləndirilməsi istiqamətində zəruri addımlar atılır.

Konfrans «AzAqroMarket» MMC-nin texniki dəstəyi ilə keçirilib.

## İqtisadi yüksəlişə xidmət edəcək kənd təsərrüfatı kompleksi

Ölkəmizdə aqroparkların və onların tərkibinə daxil olan müxtəlif mərkəzlərin tikintisi və məhsul bazalarının yaradılması istiqamətində daha bir addım kimi ölkə Prezidenti İlham Əliyevin xeyir-duası və iştirakı ilə 2014-cü ildə Şəmkir rayonunda «Şəmkir Aqroparkı»nın Logistika Mərkəzinin təməli qoyulub. Aqroparka 8604 hektar, o cümlədən, Könüllü kənd ərazisində 604 hektar, «Ceyrançöl» massivində isə 8000 hektar müvafiq torpaq sahəsi ayrılıb.

### Aqroparkın «Ceyrançöl» massivi ərazisində yerləşən hissəsi

Aqroparkın iri taxılçılıq, bitkiçilik və meyvəçilik təsərrüfatını özündə birləşdirən bu ərazisində kənd təsərrüfatının inkişafına xidmət edəcək 8000 hektar torpaq sahəsinin əkin dövriyyəsinə daxil edilib, Kür çayından əraziyə 2 istiqamətdə 730 millimetr diametrli dəmir borularla 27,5 kilometr və qismən kiçik diametrli borularla 15,6 kilometr təsərrüfatdaxili su xətləri çəkilib.

Ərazidə lazımi infrastrukturun yaradılması üçün Azərbaycan Respublikası Prezidentinin 13 yanvar 2017-ci il tarixli və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 oktyabr 2016-cı il tarixli sərəncamlarına əsasən, dövlət büdcəsindən 3.200.000 manat vəsait ayrılıb. Aqropark üçün 10 ədəd müasir «New Holland» markalı traktor və 45 adda müxtəlif kənd təsərrüfatı maşın və qoşqu avadanlıqları lizinq yolu ilə alınıb, ümumi tutumu 15.000.000 m$^2$ olan 3 ədəd sututar inşa edilib, sahəsi 2016 m$^2$ olan anbar hazırlanıb. Ərazidə 16.000 kVa gücündə elektrik yarımstansiyası və 6 ədəd transformator quraşdırılaraq ümumilikdə 35 km elektrik xətti çəkilib. 2 ədəd üzən panton üzərində 3 ədəd yeni motor və su nasosu, həmçinin 1000 hektar torpaq sahəsində ABŞ-ın «Lindsay» şirkətindən alınmış 14 ədəd müxtəlif radiuslu müasir pivot suvarma aqreqatları və avadanlıqları quraşdırılıb.

Bütün bunlar məhsuldarlığa müsbət təsir göstərib. Nəticədə pivotaltı sahələrə ötən il şəkər çuğunduru əkilərək 14.000 ton məhsul yığılıb və İmişli şəkər zavoduna təhvil verilib. Cari ildə həmin pivotaltı sahəyə qarğıdalı bitkisi əkilib.

«Ceyrançöl»də 35 nəfər daimi, 200 nəfər mövsümü işlə təmin olunub. Sahəsi 260 m$^2$ olan 9 otaqdan ibarət 2 mərtəbəli ofis binası tikilib.

Ərzaq təhlükəsizliyinin təmin edilməsinə töhfə vermək məqsədilə Aqroparkda mövcud 1.000 hektar pivotaltı sahənin genişləndirilərək 2017-ci ildə 2.000 hektar, 2018-ci ildə 1.600 hektar olmaqla, ümumilikdə 4.600 hektara çatdırılması planlaşdırılır. Bu ilin payızında 3000 hektar pivotaltı sahəyə taxıl əkilməsi və 15.000 ton məhsul istehsalı, 2018-ci ildə isə 3.000 hektar qarğıdalı əkilməsi və 30.000 ton məhsul götürülməsi nəzərdə tutulur.

İntensiv bağçılığın yaradılması məqsədilə isə 2400 hektarda damlama suvarma sistemlərinin quraşdırılması layihələndirilib. Nəticədə gələcəkdə 36.000 ton məhsul istehsal olunacaq. Pivotaltı sahəyə gələcəkdə növbəli əkin prinsipinə uyğun olaraq soya, kartof, soğan və digər bitkilər də əkiləcək. Sözügedən məhsulların saxlanılması üçün 30.000 tonluq taxıl-anbar kompleksinin qurulması, 10.000 tonluq kartof saxlama-soyuducu kamerasının yaradılması nəzərdə tutulur.

8.000 hektar torpaq sahəsini əhatə edəcək aqrotexniki qulluq prosesini vaxtında yerinə yetirmək məqsədilə aqroservis bazasının genişləndirilməsi üçün ABŞ-ın «John Deere» şirkətinin istehsalı olan 30 adda müasir kənd təssərrüfatı texnika və avadanlıqlarının alınması da yaxın zamanlarda planlaşdırılır. Nəticədə 5.000 daimi, 1.500 mövsümü iş yeri yaradılacaq, əlavə olaraq təsərrüfatdaxili yollar çəkiləcək.

«Ceyrançöl»də salınacaq bağçılıq təsərrüfatının məhsulları təməli cənab Prezident İlham Əliyev tərəfindən qoyulmuş «Şəmkir Aqroparkı»nın Logistika Mərkəzində emal ediləcək, həmin məhsulların satışı və ixracı məhz buradan təmin olunacaq.

### Aqroparkın Könüllü kənd ərazisində yerləşən hissəsi

Buranın ümumi ərazisi 604 hektardır. Bu ərazinin 100 hektarı sənaye sahəsi, 200 hektarı istixanalar, 274 hektarı intensiv bağçılıq, 25 hektarı tingçilik, 5 hektarı şitilçilik sahələrinin salınması üçün nəzərdə tutulub.

Aqroparkda həyata keçirilən bütün bu işlər ölkəmizdə kənd təsərrüfatının ÜDM-də pay nisbətini artırmağa və əhalini yerli və keyfiyyətli məhsullarla təmin etməyə xidmət edəcək.



## Logistika Mərkəzində görülən işlər böyük gələcək vəd edir

Fəaliyyətə başlayan Logistika Mərkəzinin ərazisi 12,3 hektardır. Logistika Mərkəzinin ümumi ölçüləri, uzunluğu 254 metr, eni 141 metr, hündürlüyü 14,60 metrdir.

İstehsal sahəsi 3,9 hektar ərazini əhatə edir. Burada Fransanın «Maf Roda» şirkətinin meyvələri ölçüsünə, rənginə, zədəliliyinə görə çeşidləyən və qablaşdıran avadanlıqları quraşdırılıb. İri kalibirli meyvələri çeşidləyən avadanlıqların gücü saatda 50 ton, kiçik kalibirli meyvələri çeşidləyən avadanlıqların gücü isə saatda 2 tondur.

Burada İtaliyanın «Isolcell» şirkətinə məxsusus tutumu 24.000 ton olan 71 ədəd ULO tipli soyuducu saxlama kameraları quraşdırılıb. Soyuducu depolarda meyvə və tərəvəzin növlərinə görə 25 gündən 270 günə qədər minimum itki və keyfiyyətlə saxlanılması təmin olunur.

İstehsal sahəsində eyni zamanda 200 ton məhsul qəbul edə biləcək 2 terminal, 120 ton hazır məhsul yola sala bilən 1 terminal mövcuddur.

«Şəmkir Aqroparkı»nın Logistika Mərkəzində müasir avadanlıqlarla təchiz edilmiş laboratoriya vardır. Burada meyvə və tərəvəzlərin keyfiyyəti, toksikliyi, bakterioloji və mikrobioloji göstəriciləri üzrə analizlər aparılır.

Logistik Mərkəzdə meyvə və tərəvəzlərin çeşidlənməsi, qablaşdırılması və soyuducu saxlama kameralarında saxlanılması müasir standartlara uyğun mühüm texnoloji proseslərdən keçirilərək aparılır. Bu zaman laboratoriya təhlilləri nəzərə alınır, sonra məhsul xüsusi hidroşoklama qurğusundan keçirilir. Nəticədə məhsulun çeşidlənməsi və qablaşdırılması zamanı, həmçinin, soyuducu kamerada temperatur fərqində zədə alması minimuma endirilir. Mərkəzdə regionda yetişdirilən xurmanın alıcılıq qabiliyyətini aşağı salan xüsusi dadın aradan qaldırılmasını təmin edən «determing room» qurğusu (sutkada gücü 1 ton olan) da var.

Logistika Mərkəzində sahibkarların ixrac əməliyyatları ilə əlaqədar prosedurları sadələşdirmək və sürətləndirmək məqsədilə «bir pəncərə» sistemi qurulub. Burada Dövlət Gömrük Komitəsinin, İqtisadiyyat Nazirliyi İstehlak Mallarının Ekspertizası Mərkəzinin, Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarət Xidmətinin, «Atabank» kommersiya bankının müvafiq strukturları fəaliyyət göstərəcək.

Aqroparkın kommunikasiya təminatı üçün dövlət dəstəyi ilə 25,0 meqavat gücündə elektrik stansiyası tikilib, 1 saatda buraxılışı 18.000 m$^3$ olan 9 km qaz xətti, 48 portluq 22 km fibrooptik rabitə xətti çəkilib. Hazırda 11 km uzunluğunda dəmiryolu xəttinin çəkilməsi də layihələndirilir.

«Şəmkir Aqroparkı»nın Logistika Mərkəzində tam gücü ilə fəaliyyət göstərdiyi halda 274 nəfərin işləməsi nəzərdə tutulur. Hazırda burada 179 nəfər çalışır. Orta əməkhaqqı 600 manatdır.

Mərkəzdə sahəsi 2600 m$^2$ olan ofis binası, konfrans zalı, qarderob və yeməkxana işçilərin istifadəsinə verilib.

Mərkəzin ərazisində geniş abadlıq işləri aparılıb, 25.000 m$^2$ sənaye sahəsinə yaşıl ot örtüyü, 50.000 m$^2$ sahəyə asfalt döşənib.

Mərkəzin ərazisində avtodayanacaq (o cümlədən, 25 TİR tipli yük avtomobillərinin dayana biləcəyi TIR PARK), helikopter meydançası, qazanxana və 45 kv-lıq yarımstansiya tikilib.



«Ceyrançöl»də salınacaq bağçılıq təsərrüfatının məhsulları təməli cənab Prezident İlham Əliyev tərəfindən qoyulmuş «Şəmkir Aqroparkı»nın Logistika Mərkəzində emal ediləcək, həmin məhsulların satışı və ixracı məhz buradan təmin olunacaq

# Bank ombudsmanı müştərilərin problemlərini həll edə biləcəkmi?

**Azərbaycan Banklar Assosiasiyasının (ABA) nəzdində yeni qurum - Bank Ombudsmanı təsis edilib. Sentyabrdan fəaliyyətə başlayacaq bu maliyyə qurumun başlıca məqsədi və vəzifəsi müştərilərin banklara etimadının gücləndirilməsi və tərəflər arasında yaranan mübahisələrin məhkəməsiz həll edilməsini təmin etməkdir.**

Bank Ombudsmanı banklar və müştərilər arasında vasitəçilik edərək həm kreditlərin ödənişi, həm də əmanətlərin qaytarılması ilə bağlı meydana çıxan çətinlikləri həll etməyə çalışacaq. İlkin mərhələdə ombudsmanın 2 min dollar və 3 min manat məbləğində olan maliyyə mübahisələrinə baxması nəzərdə tutulub. Hazırda banklara ombudsmanla əməkdaşlıq üçün «Bank müştəriləri ilə əlaqədar mübahisələrin baxılmaq üçün Bank Ombudsmanına verilməsi haqqında Bəyannamə»ni imzalamaq barədə sorğu göndərilib.

Azərbaycan Banklar Assosiasiyasının rəhbəri Zakir Nuriyev yeni strukturun yaradılması sayəsində banklarla müştərilər arasında yeni münasibətlərin formalaşacağına əminliyini bildirib. Qeyd edib ki, vətəndaşların böyük bir qisminin maliyyə sahəsində yetərincə məlumatlı olmaması onların problemlərlə üzləşməsinə gətirib çıxarır. Yeni institutun insanlara hüquqi biliklərin verilməsi və onların qanunvericilik, qaydalar və təlimatlar haqqında məlumatlandırılması sahəsində pulsuz xidmət göstərməsi yarana biləcək mübahisələrin də azalmasına səbəb ola bilər.

Bank Ombudsmanı institutunun yaradılmasını təqdir edən iqtisadçı Oqtay Məmmədovun fikrincə, son vaxtlar maliyyə və bank sahəsində meydana çıxan problemlər, xüsusilə də bank kreditlərinin ödənilməsində ortaya çıxan çətinliklərin həlli belə bir qurumun təsis edilməsinə ciddi ehtiyac yaratmışdı. Avropanın əksər ölkəsində çevik və inamlı fəaliyyəti ilə seçilən bu qurumun Azərbaycanda fəaliyyətə başlaması xüsusilə də kredit ödənişlərində problemlərlə üzləşən müştərilərə qarşı arzuolunmaz təsirlərin qarşısının alınmasına kömək edə bilər. Yeni ombudsman həm bank-kredit və sığorta təşkilatları, həm də müştərilərin yaranmış problemlərinin məhkəmə müstəvisinə çıxmadan həllinə kömək edərək mübahisələrin hüquqi yolla nizamlanmasına şərait yaratmalıdır.

İqtisadçı təkcə bank sektoru üzrə deyil, ümumilikdə iqtisadiyyatın bütün sahələrini əhatə edən ombudsman institutunun yaradılmasını məqsədəuyğun hesab edir. Bank ombudsmanı daha çox bank sektoru sahəsində yaranan problemlərin həlli, maliyyə təşkilatları ilə fiziki şəxslər arasında yaranmış mübahisələrin məhkəməyə müraciət etmədən aradan qaldırılması ilə məşğul olduğundan, bu orqanın biznes sahibkarların hüquqlarını müdafiə etməsi mümkün deyil. Azərbaycanda sahibkarların hüquq və mənafelərinin daha etibarlı şəkildə qorunması məqsədilə biznes ombudsmanının yaradılması daha məntiqli görünür. Belə bir mexanizmin yaradılması biznes subyektlərinin problemlərinin həll olunması, sahibkarların hüquqlarının qorunması baxımından daha faydalı olardı. Bu, sahibkarlıq sahəsində yaranan boşluqları aradan qaldırmağa kömək edə, biznes sahəsində bir növ nəzarət funksiyasını həyata keçirə bilər.

Dünyanın bir çox ölkələrində fəaliyyət göstərən bu ictimai institut mühüm prosessual statusa malikdir və biznesin inkişafına, investisiya mühitinin yaxşılaşdırılmasına öz töhfəsini verir. Keçmiş SSRİ məkanında Gürcüstan, Rusiya və Ukraynada bu cür təsisatlar bir neçə ildir fəaliyyət göstərir. Dövlət strukturları ilə sıx əlaqədə olan biznes ombudsmanı iqtisadi mübahisələrin həllində və məhkəmələrdə sahibkarların hüquqlarının qorunmasında fəal rol oynayır. Biznes ombudsmanı ümumilikdə dövlətin maraqlarından çıxış etməlidir, sahibkarın, yaxud icra orqanının mənafeyi deyil, dövlətin mənafeyi və qanunun aliliyi təmin olunmalıdır.

İqtisadiyyat Nazirliyi sahibkarların hüquq və mənafelərinin qorunmasına xidmət edən bütün təşəbbüsləri dəstəklədiyini, sahibkarların ictimai təşkilatları ilə sıx əməkdaşlığa hazır olduğunu bəyan edib. İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov bildirib ki, sahibkarların hüquqlarının qorunması daim diqqət mərkəzində saxlanılır, yerli və mərkəzi icra hakimiyyəti orqanlarında yaradılan apelyasiya şuraları sahibkarların hüquqlarının müdafiəsi yönündə mühüm strukturlar hesab oluna bilər. Hər bir sahibkar onun fəaliyyətinə müdaxilə edən, onu incidən qurumun nümayəndəsi barədə şuraya müraciət etməklə problemin həllinə nail ola bilər. Son zamanlar yerli icra hakimiyyəti orqanlarının verdiyi qərarların, daxil olan şikayətlərin araşdırılmasının yekunu göstərir ki, qərarlar əksər hallarda qanunun mənafeyinə uyğun qəbul edilir.

> Yeni ombudsman həm bank-kredit və sığorta təşkilatları, həm də müştərilərin yaranmış problemlərinin məhkəmə müstəvisinə çıxmadan həllinə kömək edərək mübahisələrin hüquqi yolla nizamlanmasına şərait yaratmalıdır

**Elbrus CƏFƏRLİ**

# Bakı sadəliyin, sakit yaşamın ünvanıdır

**Birləşmiş Ərəb Əmirliklərinin «Əl-İmarat əl-yaum» qəzetində Bakıya həsr edilmiş məqalədə bu fikir xüsusi vurğulanıb**

Məqalədə Xəzər dənizinin sahilində yerləşən, həm qədimliyi, həm də müasirliyi ilə gözəl olan Bakı şəhəri Avropa ilə Asiyanın qovuşduğu məkana kimi qeyd olunur. Bakıda alış-veriş məkanlarının, muzeylərin və qədim binaların yaxın yerləşməsi şəhərdə gözəl sintez yaradır. Bakı küçələrində qışda belə həyat qaynayır. Buranın iqlimi dekabrda da günəşlidir. Sadəliyi və sakitliyi sevənlərin vaxtlarını keçirmələri üçün Bakıda məkanlar çoxdur.

Məqalədə qeyd edilib ki, Qız qalası qədim Bakıda turistlərin üz tutduqları ən mühüm məkanlardandır. Bakının tarixi inkişafını əks etdirən muzey, eləcə də xatirə hədiyyələrinin satışı üçün guşə fəaliyyət göstərir. İçərişəhər Azərbaycanın tarixi qoruğudur, qala divarları ilə əhatələnib. Bura ənənəvi sənət və sənətkarlıq mərkəzi sayılır. Prezident İlham Əliyevin imzaladığı Sərəncamla İçərişəhər tarixi irs kimi qorunur. Yazıda ölkənin bölgələrində turistlərin istirahəti üçün hər cür şəraitin olduğu da vurğulanıb.

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı

- **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**
- **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura **«Onlayn rejimdə»** Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə **«Oflayn rejimdə»** tərtib edildikdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturadan ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

## BİR CÜMLƏ - BİR XƏBƏR

Bu ilin ilk yeddi ayında Azəri-Çıraq-Günəşli yatağı üzrə Azərbaycan Respublikası Dövlət Neft Fonduna 3 milyard 609 milyon ABŞ dolları daxil olub.

Keçən ilin müvafiq dövrü ilə müqayisədə bu ilin ilk yeddi ayında Azərbaycanda kompüter və elektron məhsullarının istehsalı 57,6 faiz, elektrik avadanlıqlarının istehsalı isə 69 faiz artaraq 125,7 milyon manatlıq məhsul istehsal olunub.

Azərbaycan Mikromaliyyə Assosiasiyasının təşkilatçılığı ilə Azərbaycana xarici investorların cəlb edilməsi və mikromaliyyə sahəsində mövcud olan yeni xidmət sahələrinin təqdim etmək məqsədilə oktyabrın 6-da V İnvestorlar Yarmarkası keçiriləcək.

Azərbaycan məhsulları növbəti dəfə vahid ölkə stendi ilə bu il sentyabrın 11-14-də Moskva şəhərində keçiriləcək «Worldfood Moscow» Beynəlxalq Ərzaq Sərgisində nümayiş olunacaq.

# İpoteka üçün elektron müraciət

Beynəlxalq təcrübə nəzərə alınaraq hazırlanmış «Elektron ipoteka sistemi» (EİS) əhalinin ipoteka kreditlərinə çıxış imkanlarının genişləndirilməsi və bu sahədə əməliyyatların avtomatlaşdırılmasını nəzərdə tutur. Sistemin tətbiqi ipoteka bazar iştirakçılarına bütün texniki prosedurları real vaxt rejimində həyata keçirməyə imkan verəcək.

Artıq «Elektron ipoteka» sistemi «Elektron hökumət» portalına inteqrasiya olunub ki, bu da əhalinin ipoteka kreditlərinə çıxış imkanlarının sadələşdirilməsi ilə yanaşı, məlumatların real vaxt rejimində emalını, məlumatların düzgünlüyü və təhlükəsizliyini təmin edir. «Azərbaycan İpoteka Fondu» ASC-nin vəsaiti hesabına verilən ipoteka kreditindən yararlanmaq istəyən hər bir şəxs «Elektron hökumət» portalına daxil olub, ipoteka kreditinin alınması üçün müraciət edə bilər. İpoteka krediti üçün real vaxt rejimində müraciət gücləndirilmiş elektron imza vasitəsilə mümkündür. Bu, əsasən, vətəndaşa lazımi sənədləri real vaxt rejimində imzalamasına şərait yaradılmasını, ipoteka krediti üzrə müraciət zamanı aparılan əməliyyatların dəqiq və təhlükəsiz həyata keçirilməsini, məlumatların mühafizəsini təmin edir. Daha əvvəl ipoteka krediti almış vətəndaşlar isə öz elektron kabinetlərini sadələşdirilmiş istifadəçi adı və şifrə ilə də izləyə biləcəklər. Xidmətdən istifadə üçün «Elektron hökumət» portalında «İpoteka krediti üçün müraciət» adlı keçid təqdim olunur.

***«Elektron ipoteka» sistemindən necə istifadə etməli?***

Xidmətə daxil olarkən ekranda vətəndaşın elektron kabinetinin yaradılması və ipoteka krediti üzrə müraciətin formalaşdırılması üçün ərizə görünür. Bu, digər dövlət qurumlarından fərdi məlumatların avtomatik qaydada alınması və müvəkkil banklara ötürülməsi barədə razılıq ərizəsidir. Razılıq ərizəsini vətəndaş elektron imza ilə imzaladıqdan sonra «qeydiyyatdan keç» düyməsini sıxmaqla elektron kabinetin yaradılmasını təmin edir. Elektron kabinetin yaradılması zamanı, vətəndaşın 6 dövlət qurumunun məlumat bazasında mövcud olan fərdi məlumatları elektron kabinetə ötürülür. Vətəndaş məlumatların düzgünlüyünü yoxlamalı və elektron qaydada ötürülməyən digər məlumatları tələb olunan xanalara özü daxil etməlidir.

«Elektron kabinet» formalaşdırıldıqdan sonra «Gəlir və xərclər» bölməsinə keçid alınır. Gəlirlər hissəsində borcalanın əsas və əlavə iş yerləri üzrə gəlirləri, sahibkarlıq fəaliyyətindən gəlirləri və digər gəlirləri üzrə müvafiq xanalar mövcuddur. Borcalanın gəlirləri barədə məlumat aidiyyəti dövlət qurumlarının məlumat bazalarından ötürülür və ekranda əks etdirilir. Ekranda gəlirlər bölməsində xana boş olduğu, lakin borcalanın rəsmi sənədlərlə təsdiq olunan gəlirləri mövcud olduğu hallarda müvafiq məlumat xanalara daxil edilir. Bu bölmənin xərclər hissəsində borcalanın öhdəliyində olan ailə üzvlərinin sayı, gəlirdən tutulmalar və digər xərclər qeyd olunur.

Borcalanın gəlirləri tələb olunan kredit məbləğinin götürülməsinə kifayət etmədiyi hallar üçün elektron kabinetdə «Birgə borcalanlar» bölməsi də yaradılıb. Burada birgə borcalan qismində borcalanın yaxın ailə üzvləri çıxış edə bilər. Birgə borcalanın cəlb edilməsi üçün onun da elektron imza əldə etməsi və əsas borcalan kimi elektron kabinetin yaradılması tələb olunur. Burada borcalanların fərdi məlumatlarının qorunması, təhlükəsizliyi və onların yalnız razılığı ilə digər borcalana ötürülməsi OTP (One Time Password) adlı birdəfəlik şifrin verilməsi yolu ilə həyata keçirilir.

***İlkin qiymətləndirmə***

Bu bölmə ipoteka krediti üzrə müraciətin müvəkkil banklara göndərilməsinin yekun mərhələsidir. Burada borcalan müraciət etdiyi kreditin tipini, güzəştli kateqoriyaya aid olduğu təqdirdə müvafiq kateqoriyanı, müraciət edəcəyi bankı, tələb olunan kreditin məbləğini, müddətini və alınan yaşayış sahəsinin əldə edilməsi üçün ilkin ödəniş məbləğini qeyd etməlidir. Borcalan bu bölmədə tələb olunan məlumatları doldurduqdan sonra «hesabla» düyməsini sıxmaqla ona ayrıla biləcək kreditin ilkin şərtləri ilə tanış olacaq.

Borcalan kreditin verilməsinə dair müvəkkil bankdan ilkin razılıq aldıqdan və alacağı yaşayış sahəsini müəyyənləşdirdikdən sonra qiymətləndirmənin həyata keçirilməsinə başlaya bilər. Bu məqsədlə, elektron kabinetdə «Qiymətləndiriciyə müraciət» bölməsi də yaradılıb.

Rəsmiləşdirilmiş kreditlər üzrə tarixçəni, aktiv kredit üzrə əsas borc, faiz və hesablanmış cərimələr haqqında məlumatları «Kreditlər» alt bölməsində əldə etmək mümkündür. Kredit və sığorta haqlarının ödənilməsi üçün elektron kabinetdə «Kreditin ödənişi» bölməsi də mövcuddur.

Bununla da, vətəndaşlar «Elektron hökumət» portalı üzərindən «Elektron ipoteka» sisteminə müraciət edərək heç bir yerə getmədən mənzilə sahib olmaq imkanı əldə etmiş olacaqlar.

**AYTƏN**

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin avqust və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-ci ilin avqust və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqavilənı və etibarnaməni imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

- Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
- Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
- Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
- Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Orta təbəqə üçün vergilərin azaldılması gündəlikdədir

İrlandiyanın maliyyə nazirinin müavini Maykl D`Arsinin sözlərinə görə, ölkənin yeni hökuməti orta gəlirli şəxslər üçün vergi yükünün yüngülləşdirilməsinə çalışır. Yerli «Examiner» nəşrinin suallarına cavab verən nazir müavini demişdir: «Hökumət bu mərhələdə orta iş mühitindəki insanların öz ayaqlarını yerə möhkəm basdıqlarını hiss etməyə ehtiyac duyduqlarını başa düşür. Ona görə də orta səviyyədə yer tutan işçilərə kömək etməliyik».

Nazir müavini gəlir vergisinin nəzərdə tutulan mümkün dərəcəsinə də aydınlıq gətirmişdir: bu, maksimal 40 faizlik dərəcə ilə standart 20 faizlik dərəcə arasında ola bilər. Hazırda ayrı-ayrı şəxslər üçün illik gəlir 33.800 avrodan artıq olanda yuxarı vergi dərəcəsi tətbiq edilir. Maykl D`Arsi demişdir: «Belə bir fikir var ki, bu iki dərəcə arasında orta vergi dərəcəsi də olmalıdır. Biz orta gəlir əldə edən insanların gəlir vergisi yükünü yüngülləşdirməliyik».

Maykl D`Arsi onu da qeyd etmişdir ki, cari maliyyə ilində vergi qanunvericiliyində hər hansı dəyişiklik aparmaq imkanı xeyli məhduddur, ona görə də yeni sxem mərhələlər üzrə «bir neçə il ərzində» gerçəkləşdirilə bilər.

# Velosiped icarədarları üçün vergi şərtləri asanlaşdırılmalıdır

Hollandiyada fəaliyyət göstərən avtomobil nəqliyyatı təşkilatının bəyanatında qeyd edilmişdir ki, ölkədə velosipedləri icarəyə verən şirkətlərin fəaliyyətini tənzimləyən vergi qanunqaydalarının mürəkkəb olması insanlara iş yerlərinə velosipedlə getməyə imkan vermir. İşəgötürənlərin öz işçilərinə verdikləri velosipedlərlə bağlı qaydalar avtomobillərin icarəsi üçün müəyyənləşdirilmiş analoji əsasda işləyir və adətən, işəgötürənlər icarəyə götürdükləri velosipedlər üçün onların şəxsi istifadə müddətinə görə vergi ödəyirlər. Bu isə o deməkdir ki, işçilər velosipedlərdən öz şəxsi məqsədləri üçün istifadə edərkən qət etdikləri məsafəni dəqiq qeydə almalıdırlar.

Hollandiyanın «Bovaq» avtomobil təşkilatının bu günlərdə yayılmış bəyanatında bildirilmişdir ki, praktiki olaraq bu cür qaydalar «iş qabiliyyətinə malik deyil» və maliyyə qeyri-müəyyənliyi böyük olduğuna görə şirkətlər öz əməkdaşlarına velosipedləri həvəssiz təklif edirlər. «İşəgötürənlərin velosipeddən istifadəni kütləvi və əlçatan hala gətirmələri alqışa layiqdir və bunun qarşısı işlək olmayan fiskal maneələrlə alınmamalıdır. Velosiped ictimai səhiyyəyə və ətraf mühitə müsbət töhfə verir və istənilən vaxt onları əldə etmək mümkündür», - təşkilatın nümayəndəsi bildirmişdir.

Onun sözlərinə görə, şəxsi istifadə ilə işgüzar məqsədlə istifadə arasında fiskal fərq qoyulması tamamilə lüzumsuzdur, velosiped nəqliyyatından istifadə zamanı isə arzuolunmaz bir şeydir. Təşkilat hökuməti qaydalara yenidən baxmağa çağırmışdır və qeyd edilmişdir ki, bir neçə il bundan əvvəl ləğv edilmiş köhnə vergi sxemi indikindən əhəmiyyətli dərəcədə cəlbedici olmuşdur.

# Braziliyada vergi sistemi əsaslı şəkildə sadələşdirilir

Bu günlərdə keçirilmiş yığıncaqda hökumət ölkənin vergi sistemində genişmiqyaslı sadələşdirmə strategiyası barədə açıqlama vermişdir. Sadələşdirmə ölkənin vergi sistemində biznesə çətinlik yaradan amillərin azaldılmasına və biznes mühitinin sağlamlaşdırılmasına xidmət etməlidir və dörd istiqaməti əhatə edir:

- Vergi bəyannamələrinin təqdim edilməsi üçün mərkəzləşdirilmiş sistemin təkmilləşdirilməsi. Yeni sistem müxtəlif vergi orqanları arasında informasiya mübadiləsinin aparılmasına, əməletmə xərclərinin azaldılmasına və vergi yığımının effektivliyinin artırılmasına imkan verməlidir;
- vergi öhdəliklərinin mərkəzləşdirilməsi və regional bəyannamələr üzrə müxtəlif tələblərin və formaların aradan qaldırılması. Plana əsasən, informasiya regional səviyyədə deyil, yalnız mərkəzi sistem vasitəsilə verilməlidir;
- Braziliyadakı şirkətlər tərəfindən göstərilən elektron vergi xidməti sisteminin mərkəzləşdirilməsi;
- gömrük öhdəliklərinə əməl edilməsinin uyğunlaşdırılması.

İndiyədək şirkətlər öz resurslarının təxminən 32 faizini ölkənin bezdirici vergi qanunvericiliyinə (bir çox göstəricilərinə görə dünyada ən mürəkkəb qanunvericiliklərdən biri sayılır) əməl etməyə xərcləyirdilər. Özəl sektoru narazı salan məsələlərdən biri də şirkətlərin 27 fərqli qanuna əməl etmək məcburiyyətində olması, eləcə də dövlət səviyyəsində əlavə dəyər vergisinin tətbiqidir.

# BƏƏ tütünə və energetik içkilərə aksiz vergisi tətbiq edəcək

Birləşmiş Ərəb Əmirliklərində bu ilin sonlarından etibarən tütün məhsullarına görə 100 faiz, energetik içkilərə görə isə 50 faiz həcmində aksiz vergisi tutulacaq.

Səudiyyə Ərəbistanında keçən ilin iyun ayından tütün məmulatlarına, energetik və qazlı içkilərə aksiz vergisi tətbiq olunur ki, bu da kəskin qiymət artımına səbəb olmuşdur.

Birləşmiş Ərəb Əmirlikləri hökuməti tərəfindən mətbuata verilmiş rəsmi açıqlamaya görə, aksiz vergisi, eləcə də əlavə dəyər vergisi haqqında qanun bu ilin üçüncü rübündə imzalanacaq, qanunların normativ bazası isə ilin son rübündə açıqlanacaq.



# MDB ölkələrinin vergi orqanları arasında informasiyanın elektron mübadiləsinə dair protokol imzalanıb

Rusiya hökumətinin rəsmi internet saytında Baş nazir Dmitri Medvedyevin imzaladığı qərar yerləşdirilmişdir. Həmin qərara əsasən, Müstəqil Dövlətlər Birliyinə (MDB) daxil olan ölkələrin vergi orqanları arasında elektron vasitələrin köməyi ilə informasiya mübadiləsi sisteminin tətbiq olunması planlaşdırılır.

Qərarın izahat qeydində göstərilmişdir ki, yeni sistemlə vergi sahəsi üzrə qanunvericiliyin icrasına dəstək göstərilməsi, informasiyanın alınması və gəlirlərin müxtəlif növləri üzrə informasiyaların mübadiləsi mümkün olacaq. Mübadilə edilən məlumatlar həm hüquqi, həm də fiziki şəxsləri əhatə edəcək. Bu sistemin tətbiqi ilə kapitalın offşor zonalara axınının qarşısının alınacağı təxmin edilir.

Qərarda vergi orqanlarını maraqlandıran məlumatların növləri qeyd edilmişdir, müəssisələrə münasibətdə bir ölkənin başqa ölkədə ödəmə mənbəyində vergi ödəyən şirkətlərinin gəlirləri haqqında informasiya əldə ediləcək. Bundan əlavə, daimi nümayəndəliyin MDB-yə daxil olan başqa bir ölkənin əraizisindəki fəaliyyəti nəticəsində əldə edilmiş gəlirlər haqqında məlumatlar da mübadilə ediləcək.

Fiziki şəxslərin gəlirləri ilə bağlı əldə ediləcək məlumatlara münasibətdə qarşıya çoxlu suallar çıxır - çünki bu həm sövdələşmədən, həm işin nəticəsindən əldə olunan gəlirlərdir. Hökumət tərəfindən bir məsələyə xüsusi olaraq dəqiqlik gətirilmişdir: imzalanmış saziş çərçivəsində əldə ediləcək informasiyanın hamısı tam məxfi olacaq. Rusiya hökumətində belə hesab edirlər ki, bu protokol qanunların icrasına nəzarət üçün əlavə vasitələr yaradacaq.

# Aİ yeni sanksiyalara hazırlaşır

Avropa İttifaqı (Aİ) vergi dərəcələri aşağı olan və vergi limanlarının növbəti «qara siyahısına» düşəcəyi ehtimal edilən yurisdiksiyalar üçün dörd yeni sanksiya növünü nəzərdən keçirir. Xatırladaq ki, keçən ilin payızında Avropa Şurası 2017-ci ilin sonuna qədər vergi məsələləri ilə bağlı Aİ ilə əməkdaşlıq etmək istəməyən ölkələrin siyahısını tutmaq qərarına gəlmişdi.

«Bloomberg» agentliyinin məlumatına əsasən, Aİ-nin vergi limanlarına tətbiq etmək üçün nəzərdən keçirdiyi sanksiyalar bunlardır:

- vergiləri çıxmaq;
- xarici şirkətlərə nəzarət üçün yeni qaydalar müəyyənləşdirmək;
- royalti kimi çıxılan ödənişləri ləğv etmək;
- güzəştlərin məhdudlaşdırılmasında iştirak etmək.

Aİ-nin üzərində işlədiyi sxemə əsasən, ayrı-ayrı üzv dövlətlər aşağı vergi dərəcələri tətbiq edən eyni yurisdiksiyaya qarşı müxtəlif sanksiyaları tətbiq edə bilər.

«Bloomberg» agentliyinin məlumatına görə, Aİ-nin sənədində vergiləri aşağı olan yurisdiksiyalara qarşı cəzanın üç variantı var: çevik yanaşma, sərt yanaşma və hərtərəfli yanaşma. Hazırda Aİ-nin vergi limanlarının «qara siyahısına» daxil etmək üçün 92 ölkəni nəzərdən keçirdiyi bildirilir.

# Pakistan büdcə daxilolmalarının artdığını elan edib

Ölkənin maliyyə naziri İshak Dar 2016-cı vergi ili üzrə göstəricilərin təhlilini verərək bildirmişdir ki, hökumətin vergi ödəyiciləri bazasının genişləndirilməsi sahəsində göstərdiyi səylər uğurlu olmuşdur. Onun sözlərinə görə, qeydiyyata alınmış vergi ödəyicilərinin sayı vergi ödəyiciləri reyestrinin yaradıldığı 2013-cü il ilə müqayisədə 50 faizə yaxın artmışdır. 2016-cı ildə vergi bəyannaməsi verən şirkətlərin, assosiasiya və fiziki şəxslərin sayı 1,2 milyon olmuşdur, 2013-cü ildən 2016-cı ilə qədər olan dövr ərzində isə vergi daxilolmaları 18 milyard ABŞ dollarından 28 milyarda çatmışdır. İshak Dar demişdir: «Vergi bazasının genişləndirilməsi üçün hökumətin irəli sürdüyü təşəbbüslər arzu edilən nəticələri verir. Vergi ödəyiciləri reyestri - hökumətin geniş ictimaiyyətə informasiyanı əldə etmək imkanı yaratmaq öhdəliyinin təzahürü olmaqla ictimaiyyətin məlumatlandırılmasının, eləcə də vergitutma proseslərində motivasiyanın və şəffaflığın artırılmasına imkan verəcək».



krossvord

**Yuxarıdan aşağı:** 1.Azərbaycan opera müğənnisi (lirik-dramatik tenor), mahir təsnif ifaçısı, musiqi folkloru tədqiqatçısı; 2.Uzaq Şərqdə çay; 3.İnad, təkid; 4.Ağ yundan və kətandan hazırlanmış qədim Roma geyimi; 5.İsveçrədə dairə; 6.Futbol və voleybolda mühafizə funksiyasını yerinə yetirən, güc və təmkin tələb edən oyunçu mövqeyi; 9.Fransanın cənub-şərqində şəhər; 13.İngiltərədə qraflıq; 15.Karbonatlar sinfinə aid süxur (mineral); 16.Məscidlərin qiblə tərəfindəki divarında namaz qılarkən pişnamazın və onun ardınca başqa namaz qılanların üzlərini çevirdikləri yer; 17.Müəyyən edilmiş ölçü vahidinin dəqiq nümunəsi; 18.Alyaska ərazisinə ekspedisiya təşkil etmiş ilk səyyahlardan hesab olunur. Gəmilərlə səfərə çıxarkən Alyaska yaxınlığında yerləşən adada vəfat edib, sonradan ada onun adı ilə adlandırılıb; 20.Hər hansı aktivin pul ilə ifadə olunmuş qiyməti; 21.Fransız təbiətşünası, naturalist, paleontologiya elminin və müasir müqayisəli anatomiyanın atası hesab olunan alim.

**Soldan sağa:** 1.Böyük Britaniyada ali hüquqşünas kateqoriyası; 5.Azərbaycanda düzənlik ərazi; 7.Çıxılması çətin, dolanbac və dolaşıq yolları olan böyük bina, tikili; 8.Birja bağlandıqdan, alğı-satqı sessiyaları qurtardıqdan sonra aparılan ticarət əməliyyatları; 10.Qadın adı; 11.Qədim yunan mifologiyası obrazlarından biri; 12.Antarktidada ən uzun çay, həmçinin mineral adı; 14.Çox qədimdən şərq ölkələrində becərilən xoş ətirli qiymətli meyvə; 19.Monqolustanda şəhər; 21.Belçika riyaziyyatçısı, astronomu, meteoroloq və sosioloqun adı. Elmi statistikanın banisi; 22.Yuxu; 23.Kişi adı; 24.Kimyəvi element; 25.Almaniya parlamenti.



*Çox qədimdən Şərq ölkələrində becərilən xoş ətirli qiymətli meyvə. Natürmort. Klod Mone, 1867*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Kəklik; 2.Natalya *(Məmmədova)*; 3.İclas; 4.Eqoist; 5.Afina; 6.Olivin; 9.Aqil *(Əliyev)*; 13.Duat; 15.Beysbol; 16.Rodari *(Canni)*; 17.Dallas; 18.Tərtər; 20.İlahə; 21.Güzəm. **Soldan sağa:** 1.Kantilena; 5.Alo; 7.Kotilyon; 8.Fici; 10.İflas; 11.Siqnaxi; 12.Saldo; 14.Alibi; 19.Okinava; 21.Göyçə; 22.Aran; 23.Elizabet; 24.İlə; 25.Assembler.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

idman

## Güləş üzrə dünya çempionatı başlayıb

Avqustun 21-də Fransanın paytaxtı Parisdə güləş üzrə dünya çempionatı start götürüb.

İlk yarış günündə 71, 75, 85 və 98 kiloqram çəki dərəcələrində yunan-Roma güləşçiləri mübarizəyə qoşulublar.

85 kiloqram çəki dərəcəsində mübarizə aparan İslam Abbasov Peru və Yaponiyadan olan rəqiblərini mübarizədən kənarlaşdırsa da, dörddəbir finalda Almaniya təmsilçisinə uduzub. Rəqibin finala yüksəlməsi ilə təsəlliverici görüşdə iştirak edən güləşçimiz burada Kuba idmançısı ilə qarşılaşmanı üstün tamamlayıb. İ.Abbasov bürünc medal uğrunda mübarizədə İran idmançısına məğlub olaraq mübarizəni dayandırıb.

Yarışların ikinci günü komandamızın üzvləri arasında Elvin Mürsəliyev fərqlənib. O, rusiyalı Olimpiya çempionu Roman Vlasovu, Polşa təmsilçisi Edgar Babayanı və mərakeşli Zied Aid Ouagramı məğlub edərək yarımfinala adlayıb. Yarımfinalda Belarus təmsilçisi Radzik Kulieu ilə gərgin keçən qarşılaşmada hesab bərabər olsa da, sonuncu xalı qazandığından qələbə rəqibə verilib.

## Virtual çempionat keçiriləcək

Nüfuzlu «Formula-1» yarışlarının yeni sahibləri «Formula-1 Esports Series» adlı yeni turnirin başlanması barədə elan veriblər. Yarışın məqsədi planetin ən yaxşı virtual yürüşçüsünü müəyyən etməkdir.

Çempionat iştirakçıları sentyabrın 4-dən yeni «Codemasters F1 2017» oyununda xal toplamalıdırlar. Avqustun 25-dən satışa çıxarılacaq bu oyun «Xbox Live», «PlayStation Network» və ya «Steam» servislərinin oyun akkauntuna qoşulacaq.

Oktyabrın 10-da Londonda qırx ən yaxşı yürüşçünün keçirəcəyi yarımfinalda 20 finalçı müəyyənləşəcək. Final isə Abu-Dabidə «Formula-1» mövsümünün son mərhələsi zamanı keçiriləcək. İki gün ərzində «Formula-1 Esports Series» turnirinin ilk mövsümünün qalibi müəyyən ediləcək.

## Gimnastlarımız uğurla çıxış ediblər

Minskdə batut gimnastikası üzrə açıq Slavyan Oyunları keçirilib. Azərbaycan gimnastlarının da iştirak etdiyi yarışlarda 11 ölkənin təmsilçiləri 11-12, 13-14, 15-16, 17 və daha böyük yaş kateqoriyasında çıxış ediblər.

Batutçularımız həm sinxron, həm də fərdi proqramda hesaba medal yazdırmağa müvəffəq olublar. Belə ki, Oleq Piunov-İlya Qrişunin cütlüyü sinxron proqramda yalnız ev sahibi komandasından geri qalıb. Kişi cütlüyümüz 49.765 xalla gümüş medal əldə edib. İlya fərdi proqramda da uğurlu çıxış nümayiş etdirərək, həlledici mərhələdə fəxri kürsünün 3-cü pilləsinə yüksəlib.

Qadın cütlüyümüz Svetlana Makştaryova və Veronika Zemlyanaya sinxron proqramda medal qazana bilməsələrdə (5-ci yer), Veronika fərdi proqramda ilk üçlükdə yer alaraq, şəxsi hesabına bürünc medalı daxil edib.

Heyətimizdə yer alan ən gənc batutçumuz Selcan Mahsudovanın bu oyunlardakı çıxışını isə komandamız üçün ən yaddaqalan hesab etmək olar. Belə ki, fərdi proqramda gənclər arasında mübarizəyə qatılan gimnastımızın yetəri qədər özünə inamlı çıxışlar nümayiş etdirməsi ona beynəlxalq arenada ilk medalını qazandırıb. Selcan 50.290 xalla, turnirin bürünc mükafatına layiq görülüb.

## Nərmin Xələfova beynəlxalq dərəcəli qrossmeyster oldu

FIDE-nin son Prezident Şurasının qərarı ilə həmyerlimiz Nərmin Xələfovaya beynəlxalq dərəcəli qrossmeyster adı verilib.



Hazırda Nərmin qadın şahmatçılardan ibarət Azərbaycan komandasının növbəti yarışlara hazırlığı çərçivəsində Azərbaycan Şahmat Federasiyasında beş lövhədə Almaniya yığması ilə yoldaşlıq görüşündə iştirak edir. Azərbaycan komandasının heyətində Nərmin Xələfovadan (2239) başqa, Gülnar Məmmədova (2357), Ülviyyə Fətəliyeva (2323), Zeynəb Məmmədyarova (2277) və Xanım Balacayeva (2282), Almaniya komandasının heyətində Elizabet Payeş (2469), Sara Hult (2449), Yelena Levuşkina, Tiyes Heynemann (hər ikisi 2284) və Fiona Siyeber (2277) də çıxış edirlər.

Yarışın ilk günündə Azərbaycan şahmatçıları 4:1 hesabı ilə qalib gəliblər.

## Ötən ilin yüz ən yaxşı futbolçusu

**İngiltərənin «The Guardian» qəzeti ötən ilin 100 ən yaxşı futbolçusunun adlarını açıqlayıb.**




Siyahının ilk beşliyində ardıcıl olaraq Kriştianu Ronaldo («Real Madrid»), Lionel Messi («Barselona»), Luis Suarez («Barselona») , Antuan Qrizman («Atletiko Madrid») və Neymar («Barselona») qərarlaşıblar. Türk əsilli futbolçulardan ikisi siyahıda yer ala bilib. Onlar Məsud Özil («Arsenal», 23-cü yer) və İlkay Gündoğandır («Mançester Siti», 85-ci yer). Siyahıda sonuncu yerdə Almaniyanın «Borussiya Dortmund» komandasının fransalı hücumçusu Usman Dembeledir.

Xatırladaq ki, siyahıda futbolçular ötən il çıxış etdikləri klubların oyunçusu kimi göstərilib.

mozaika

evdə lazım olar

## «Ağıllı» pəncərələr yaradılıb



Amerikalı alimlər günəş işığının qarşısını alan şüşənin yaradılması üçün yeni texnologiya təklif ediblər.

Hazırda şəffaflığı dəyişdirilə bilən «ağıllı» pəncərələr mövcuddur. Sərnişinlər bəzi «The Boeing 787 Dreamliner» hava gəmilərində düyməyə sıxmaqla öz illüminatorlarının şəffaflığını dəyişdirə bilirlər. Bu cür həllər şüşənin qatları arasında çəkilmiş xüsusi geldən istifadə nəticəsində mümkün olur. Elektrik enerjisinin verilməsi şəffaflığı dinamik dəyişdirməyə imkan verir. Digər tərəfdən, bu yanaşma kifayət qədər baha başa gəlir, şəffaf vəziyyətə keçid 20 dəqiqəyə kimi vaxt alır. Gel isə vaxt keçdikdə öz xüsusiyyətini itirir.

Maykl Makqinin rəhbərliyi ilə ABŞ-ın Stenford Universitetinin alimləri tamamilə yeni texnologiya təklif ediblər. Alimlər tərəfindən düzəldilmiş «ağıllı» pəncərələr bir dəqiqə ərzində şəffaf vəziyyətdən tutqun vəziyyətə və əksinə keçmək qabiliyyətinə malikdir. Belə şüşə platin nanozərrəciklərlə aşkarlanmış və mis ionlarının mənbəyi ilə birləşdirilmiş elektrik keçirici və şəffaf indium oksid-qalaydan hazırlanır.

Alimlərin sözlərinə görə, laboratoriyada işlək prototip heç bir deqradasiyaya uğramadan ümumilikdə 5500 dəfə bir vəziyyətdən başqa vəziyyətə keçib.

maraqlı

## Uçan taksi nümayiş etdirilib




«Dubai Media Office» uçan taksiləri əks etdirən fotoları yayıb. Bu şəkillər yeni nəqliyyat vasitəsi haqqında əyani təsəvvür yaradır. İkiyerli taksinin eksperimental sınaq buraxılışının bu ilin sonunda olacağı gözlənilir.

Uçan taksi elektrik qidalanması ilə təchiz edilib. Akkumulyator sistemi ilə işləyən taksi saatda 50 kilometr sürətlə uça biləcək və maksimal uçuş sürəti isə saatda 100 kilometr olacaq. Taksinin havada qalma müddəti 30 dəqiqəyə yaxındır. Onun təhlükəsiz uçuş və eniş üçün bir neçə rotoru vardır, rotorlar işləmədikdə isə paraşütlərdən istifadə etmək mümkündür.

texnologiya

## «Cassini» peyki Saturnun atmosferinə daxil olub

Saturndakı missiyasının son mərhələlərinə hazırlaşan «Cassini» peyki avqustun 14-də bu planetin atmosferinin xarici qaz təbəqəsindən keçmək üçün beş cəhddən ilkini edib.

BBC-nin məlumatına əsasən, ABŞ Milli Aeronavtika və Kosmik Fəzanı Tədqiq Agentliyinin (NASA) kosmos vasitəsi olan «Cassini» Saturnun atmosferinin ən üst qatındakı buludlardan yalnız 1600 kilometr yuxarıda bir keçid edə bilib. «Cassini»nin atmosferlə təmasının peyki ləngidəcəyi ehtimal olunur. Ancaq alimlər peykin bu təsirlərdən yan keçəcəyinə ümid edirlər.

İlk cəhdlə Saturnun kimyəvi quruluşu ilə bağlı əvəzsiz məlumatlar əldə ediləcək və atmosferdəki qazlar ölçüləcək. Son cəhddən sonra isə «Cassini» Saturnun atmosferinə tam daxil olacaq və bununla da peykin vəzifəsi başa çatacaq. Saturnda aparılacaq ölçülərlə bu planetdə günün nə qədər davam etdiyinin də hesablanacağı gözlənir. Alimlər bugünədək Saturnda bir günün 10,5 saat uzandığını təxmin edirlər. Lakin bu, indiyədək tam ölçülməyib.

Sentyabrın 15-də «Cassini» peyki yanaraq missiyasını başa çatdıracaq. Bunun səbəbi «Cassini»nin gələcəkdə həyat üçün yararlı olan Titan və Əndəlüs kimi peyklərlə toqquşma ehtimalını tamamilə aradan qaldırmaqdır.

cəmiyyət

## Beynəlxalq müsabiqənin mükafatı



AZƏRTAC-ın fotomüxbiri İlqar Cəfərov Serbiyada və Bosniya-Herseqovinada keçirilmiş «SHADOW HUNTER CIRCUIT 2017» dairəvi beynəlxalq fotomüsabiqədə «Fotojurnalistika» nominasiyasında iki mükafata layiq görülüb.

Müəllifin «Paralimpiya basketbolunda məşqçi» adlı fotoşəklinə görə Serbiyada ona Amerika Fotoqraflar Cəmiyyətinin (PSA Honorable Mention) fəxri lenti, Bosniya-Herseqovinada isə həmin fotoşəkilə görə Beynəlxalq Fotoqraflar Assosiasiyasının Master of Light diplomu (MOL PA Diploma) verilib.

Müsabiqədə dünyanın 50 ölkəsindən 285 fotoqraf iştirak edib. Bu fotoşəkil 2016-cı ilin sentyabr ayında Rio-de-Janeyroda (Braziliya) keçirilmiş Paralimpiya Oyunlarında çəkilib.

faydalı

## Həm təzə meyvəsi, həm də qurusu...

Abşeron yarımadasında becərilən əncirin «Sarı sabahi» və ya «Sarı əncir» növləri xüsusilə məşhurdur. Onun xoş ətri, şirin dadı, nazik qabıqlı və sarı rəngli meyvələri var. Qara əncirin irisi, sarı əncirin xırdası daha keyfiyyətlidir.



Əncir orqanizmə qida vasitəsilə daxil olan şəkərin piyə çevrilməsinə mane olur. Əncir kifayət qədər kalorilidir. Bir meyvəsinin enerji dəyəri 60 kaloridir. Tərkibində külli miqdarda lif olduğuna görə az kalorili pəhrizlərdə ondan istifadə əlverişlidir. Quru əncirin tərkibində 2 qram lif var və bu, gündəlik lif ehtiyacının 20 faizini təşkil edir. Arıqlamaq istəyənlər üçün ideal desert sayılır. Əncirdə hər iki-həm həll olunan, həm də həll olunmayan lif növünün birgə olması meyvəni çox əhəmiyyətli qidaya çevirir.

Əncirdəki aktioksidantlar orqanizmdə kimyəvi reaksiyalar nəticəsində yaranan və ya kənardan qəbul edilən zərərli maddələri təsirsiz hala gətirir və hüceyrənin məhv olunmasının qarşısını alır. Əncirdə fenolun miqdarı başqa meyvələrlə müqayisədə daha çoxdur və mikroorqanizmlərə öldürücü təsir göstərir.

Tərkibində kalsiumun çoxluğuna görə əncir portağaldan sonra ikinci meyvə sayılır. Bir kasa quru əncir bir kasa südlə eyni miqdarda kalsium saxlayır. Onu uzunmüddətli xəstəlikdən sonra sürətlə sağalmağa yardımçı olan, güc və qüvvə verən bir dərman kimi də dəyərləndirirlər.

Asqırma, öskürək və soyuqdəymə zamanı süddə bişirilmiş əncirin öskürək əleyhinə, tərqovucu və qızdırmasalıcı vasitə kimi qəbul edilməsi tövsiyə olunur.

Tərkibində dəmir maddəsi alma meyvəsində olandan daha çoxdur və ona görə də dəmirdefisitli anemiyalarda geniş istifadə edilir.

Kaliumun miqdarına görə badamdan sonrakı yeri tutan əncir həmin xüsusiyyətinə əsasən ürək döyüntülərinin artması və döş qəfəsində ağrılar zamanı istifadə olunur. Tərkibində olan fitsin maddəsi qandurulaşdırıcı təsir göstərir, damarlarda qanın tromblaşmasının qarşısını alır.

**Müdriklər deyib ki...**



***«İnsanları yoxsulluq və ya varlılıq deyil, paxıllıq və xəsislik pozur».***

*Bernard Şou (1856-1950)*